إِنَّ هَذَا الْقُرْآنَ يَهْدِي لِلَّتِي هِيَ أَقْوَمُ

# PEYĞƏMBƏR (S) VƏ ƏHLI-BEYT (Ə) MƏKTƏBINDƏ QURANŞUNASLIQ DƏRSLƏRI

Hacı Əhliman Rüstəmov

# Bismillahir-Rahmənir-Rahim

# Ön söz

İnsan yer üzünə qədəm qoyub təklif sahibi olandan (yəni, həddi-buluğa çataraq şəriət məsələləri boynuna vəzifə gələndən – red.), ta ömrünün sonuna qədər daima fəaliyyətdədir. Bu fəaliyyət iki qanun üzərində qurulur. Bunlardan biri təkvini, ikincisi isə təşrii qanun adlanır. Təkvini qanunda insanlar məsumdurlar. Onlar bu qanunu poza bilmirlər. İstəklərindən asılı olmayaraq ona əməl edib o qanunun hakimiyyətinə boyun əyirlər.

İkinci qanun ki, təşrii (şəriət) qanunlardır, insan burada ixtiyar sahibidir. O qanuna əməl etmək, insana bəzən vacib formada, bəzi hallarda isə məsləhət formasında buyurulub. Başqa sözlə desək şəriət qanunlarının bəzilərinə insanın əməl etməsi vacibdir, bəzilərinə isə əməl etsə yaxşıdır, əməl etməsə cəzası yoxdur.

Təkvini qanunlarda insan ona görə məsumdur ki, yuxarıda dediyimiz kimi, insan bu qanuna məcburi formada əməl edir: dünyaya gəlmək vaxtı çatarkən doğulur, zamanı çatarkən diş çıxarır, hərəkət edir,

gəncləşir, qocalır və dünyasını dəyişir. Bu qanunun müqabilində insanın mənəvi mənfəəti yoxdur. Amma təşrii qanuna əməl etmək insana o qədər mənfəət gətirir ki, insan ilahiləşə bilir: meraca gedir, əlçatmaz zirvələr fəth edir, mələklərdən üstün olur, Allah ona xatir kainata rəhmət bəxş edir. Bu üstünlüyün birinci səbəbi insanın o qanun qarşısında ixtiyarı olmağındadır - öz seçimi ilə fəziləti rəzilətə üstün tutmağındadır, ilahiləşməni şeytaniləşməyə qələbə etdirməyindədir.

Bəli, biz şəriət qanunları ilə vəzifələnərkən fəzilətlər bizə üz gətirir. O vəzifələrə əməl edərkən fəzilətləri əxz edirik, əks halda isə onları əlimizdən veririk.

"Bəs bu vəzifələr haradan bizə vacib olur?" sualına, bu gün hər qanundan üstün olan, bəşərin əl aparıb təhrif edə bilmədiyi ilahi qanun - ilahi kitab olan Qurani-Kərimdə cavab tapa bilərik. Allah-Təala müqəddəs kitabında buyurur:

فالهمها فجورها و تقواها

"Biz insana yaxşı və pisi ilham etdik." (surə "Şəms", ayə 8).

Başqa bir yerdə buyurur:

ان هذا القران يهدى للتى هي اقوم

"Həqiqətən bu Quran ən möhkım və əbədi olan bir

dinə hidayət edir.” (surə “İsra”, ayə 9). Belə məlum olur ki, bu din ən möhkəm və əbədi bir dindir və buna hidayət edən kitab isə ən üstün qanuna malikdir. Bizim bu dini qəbul edib, onun qanunlarına əməl etməyimiz, Quranın hökmü ilə vacib olubdur.

Qısa bir araşdırmadan sonra məsələni belə qoyuruq ki, biz iki cəhətdən təkmilləşirik: birincisi bu qanuna əməl etmək, ikincisi isə bu qanuna düzgün yanaşmaq istəməyənlərlə və ya düzgün yanaşmağı bacarmayanlarla mübarizə aparıb, onlar tərəfindən xalqın fikrində yaranmış çaşqınlığa aydınlıq gətirməkdən ibarətdir. Əlbətdə, bu, bir cəhətdən bizə vacib olan təklifdir. Şübhəsiz ki, bizim muxtəlif sahələrdə təkliflərimiz vardır. Amma işarə etdiyimiz sahə bu gün aktual bir məsələ olduğuna görə və son zamanlar bəzi ünsürlərin Quranın müqəddəs olan ayələrini öz çaşqın nəzərləri ilə təfsir etmələri, səbəb oldu ki, biz də qələm götürüb bu barədə, kiçik də olsa, oxuculara bir yazı təqdim edək. Əlbətdə, televiziya ekranlarında və kütləvi mətbuatda gedən əks təbliğatlara qarşı bu yazı çox azdır. Amma ümüdimiz budur ki, Allah belə yazılara bərəkət verəcək, özü buyurduğu kimi; “sayca az olan çox dəstələr var ki, sayca çoxluq təşkil edənlərə qalib olublar”. Yaxud, Natiqi-Quran olan Mövla İmam Əli (ə) buyurub: “Həqiqət yolunun əhlinin azlığı sizi qorxutmasın”.

SonUmidTv

Bu yazıda Quranın maarifi, ayələrin nazil olma səbəbləri, Quranı kimlər təfsir edə bilər və vəhyin növləri haqqında, Quran ətrafında bir neçə cəhətdən söhbət açaq ki, möminlərə qaranlıq olan məsələlərə aydınıq gəlsin.

Bu yazıya başlamağımız Quran və rəhmət ayı olan Ramazan ayına təsadüf etdiyindən, inşaallah xeyrinin çox olacağına ümid edirik.

5 Ramazan 1425
20 Oktyabr 2004

**Bismillahir-Rahmənir-Rahim**

## 1-ci DƏRS

*I. Quranın öz dili ilə "Quranın nazil edilməsindən məqsəd"*
*II. Quranın dili*
*III. Quranın bəyan uslubu*
*IV. Maarif bəyan etməkdə Quranın başqa kitablarla fərqi*

## Quranın öz dili ilə "Quranın nazil edilməsindən məqsəd"

Əvvəla bir qədər Quran haqqında məlumat verək. Belə ki, Quran asimani bir kitab olaraq Allah tərəfindən, Allahın "Şədidül Qüva" (çox qüvvətli) adlandırdığı, ən ali olan, əmin ləqəbi ilə tanınmış mələk - Cəbrailin vasitəsi ilə yer üzündə insanların əşrəfi, ən fəzilətlisi və əmini olan bir şəxsə nazil olmuşdur. Bu kitabın əhəmiyyəti, mövqeyi və qiyməti ondan məlum olur ki, Allah-Təala onu ən etibarlı əllərə tapşırdı, və əlavə olaraq buyurdu: "Biz onu (Quranı) göndərmişik, biz də onu qoruyub saxlayacağıq".

Başqa bir yerdə isə Allah-Təala Quranı göndərməkdə öz məqsədini belə bəyan edir: “Bu Quran çox möhkəm bir dinə hidayət edir”.

“Bəqərə” surəsinin 2-ci ayəsində Allah-Təala buyurur: “Bu kitab təqvalıları hidayət edəndir”.

ذالك الكتاب لا ريب فيه هدى للمتقين

Bunun mənası odur ki, təqva əhli, Allahdan qorxanlar bu kitabın vasitəsi ilə hidayət olunub kamala yetişərlər.

Amma, digər tərəfdən də Allahın məqsədi Quranı göndərməkdə bütün bəşəriyyəti hidayət etməkdir. Bu barədə Quranın müxtəlif yerlərində ayələr vardır. Məsələn, “Tövbə” surəsinin 33-cü ayəsində buyurur: “Allah öz elçisini hidayət etməyə və həqq dinə dəvət etməyə və bu dini bütün dinlərə qalib etmək üçün göndərib, müşriklərin acığı gəlsə də”.

هو الذى ارسل رسوله بالهدى و دين الحق ليظهره على الدين كله ولو كره المشركون

Başqa bir yerdə (Müdəssir-31) buyurur:

“O, bəşəri xəbərdar etmək üçündür”.

و ما هى الا ذكرى للبشر

“O, aləmləri xəbərdar etmək üçündür”. (Qələm-52).

و ما هو الا ذكر للعالمين

Yenə başqa bir yerdə Allah-Təala belə buyurur: "Böyük olan Allah Furqanı öz bəndəsinə aləmlərə nəsihət vermək üçün nazil edib". (Furqan-1).

تبارك الذى نزل الفرقان على عبده ليكون للعالمين نذيرا

Bunlardan başqa da bu məzmunda bir çox ayələr vardır ki, həmən mənaları daşıyır və Quranın ümumibəşər kitab olduğunu bildirir. Belə olan halda gərək bu kitab bir dildə və bir mənada olsun ki, bütün bəşər onu başa düşə bilsin, bütün millətlər hər zamanda, sudan istifadə etdikləri kimi ondan istifadə etsinlər. Hamı ondan istifadə etməyi bacarsın ki, sonra deməsinlər, biz onu başa düşmədik.

## Quranın dili

Qurani-Kərimə diqqət edərkən görürük ki, hər hansı bir milliyyətə, mədəniyyətə və dilə mənsub olmaq bu kitabdan istifadə etməyə mane olmur. Hamı ondan istifadə etməyi bacarır. Başqa ibarə ilə desək, Quran hamının dilindədir. Şübhəsizdir ki, dil deyəndə lüğət və ədəbiyyat nəzərdə tutulmur. Məlum məsələdir ki, Quran ərəb lüğətindədir. Amma insanlar müxtəlif dillərdə danışırlar. Quran dili deyəndə insanların müştərək olan dilindən söhbət gedir. Doğrudur, insanlar müxtəlif mədəniyyətə və iqlimə

malikdirlər. Buna baxmayaraq onların arasında müştərək dil və mədəniyyət vardır. Dəyişilməyən həmin müştərək dil və mədəniyyət, insaniyyət dili və mədəniyyətidir. O, bütün insanlar arasında əbədidir. O dil və mədəniyyət insan fitrətindən ibarətdir. Allah-Təala da Quranı insanların fitrətini oyatmaq və yaşatmaq üçün göndəribdir.

Bəli, Quran məfhumu fitrət dilindədir. Bütün insanlar da fitrətdə müştərəkdirlər. Biz bu məsələ ilə tarixdən də tanışıq ki, Peyğəmbər (s)-in ətrafında müxtəlif millətlərdən olan insanlar var idi. Bü gün də Quran əhli müxtəlif dillərə və adət-ənənələrə mənsubdurlar. Amma hamısı Qurandan tərbiyələnib, iman sahibi olub kamala yetişirlər.

Həzrət Peyğəmbər (s)-in şüarlarından biri də belə idi: "Mən ağlara, qaralara və qırmızılara peyğəmbər göndərilmişəm. (Biharül ənvar, c-16, c-323).

ارسلت الی الابیض والاسود والاحمر

Həzrətin (s) məqsədi bütün millətlərə peyğəmbər olaraq göndərildiyini bildirməkdir.

Quranın ümumi olmağı və məfhumunun hamı tərəfindən başa düşülməsi barədə Quranın özündə də çoxlu ayələr vardır. Xülasəyə görə onlardan fəqət birinə işarə edək: "Ey camaat, həqiqətən Allahınız tərəfindən sizə burhan gəlib və biz sizə aşkar nur nazil

etmişik". (Nisa-174).

يايها الناس قد جاء كم برهان من ربكم وانزلنا اليكم نورا مبينا

Deməli, bütün bu deyilənlərdən belə nəticəyə yetişirik ki, Quran bütün insanlara və onların fitrətlərinə uyğun nazil olubdur.

## Quranın bəyan uslubu

Allah-Təala Peyğəmbər (s)-in risalətini bəyan edərkən buyurur: "O, bir Allahdır ki, millətlərin özündən onlara peyğəmbər göndərib ki, onlara ayələri oxusun, onları paklandırsın, onlara kitabı və hikməti öyrətsin. Bir halda ki, əvvəlldə aşkar zəlalətdə idilər". (Cümə-2).

هوالذى بعث فى الامين رسولا منهم لم يتلوا عليهم ءاياته ويزكيهم ويعلمهم الكتاب والحكمة وان كانوا من قبل لفى ضلال مبين

Başqa bir ayədə (Nəhl-125) buyurur: "Allahının yoluna dəvət et, hikmət və yaxşı moizələrlə, onlarla yaxşı yol ilə mücadilə et".

ادع الى سبيل ربك بالحكمة والموعظة الحسنة

Bunlardan başqa da ayələr qeyd etmək olar ki, bu ayələrdə Allah-Təala müxtəlif cəhətlərdən insanlara xəbərdarlıq edir. Bəzilərini cəhənnəm ilə qorxudur,

SonUmidTv

bəzilərinə behişt müjdəsi verir, bəzi yerlərdə elmi nöqtələrə işarə edir, bəzi hallarda da sadə, kəskin misallar vurur. Bu dediklərimiz Quranın bəyan yollarıdır. Ona görə Allah-Təala bu üslubdan istifadə edir ki, insanlar əxlaq cəhətdən müxtəlifdirlər. Hər fərd müxtəlif yollarla islah olunur.

Həzrət Peyğəmbər (s) buyurub: "İnsanlar mədəndirlər, qızıl və gümüş mədənləri kimi".

الناس معادن كمعادن الذهب و الفضة

(Biharül ənvar, c-16, c-323).

İnsanların bəzisi sadə fikirli, bəziləri isə dərin düşüncəlidirlər. Ona görə də ümumbəşər olan bir kitab gərəkdir ki, hamını başa sala bilsin.

Qurani-Kərim məhz elə həmən üslubdadır.

# Maarif bəyan etməkdə Quranın başqa kitablarla fərqi

Əvvəldə qeyd etdiyimiz kimi Qurani-Kərim ilahi maarifləri bəyan etməkdə xüsusi üslublardan istifadə edibdir. İndi isə Quranın üslubunun digər elmi kitabların üslubu ilə fərqini qeyd edək.

Allah-Təala Peyğəmbər (s)-in risalətini bəyan edərkən bəzən buyurur: ”Cammata kitab və hikməti öyrət”.

Bəzi hallarda o, Peyğəmbər (s)-in risalətini xalqı zülmətdən nura doğru aparan kimi elan edir. Qurani-Kərimi isə xalqı hidayət etməkdə Peyğəmbər (s) üçün bir silah kimi qələmə verir: “Mənim əzabımdan qorxanları Quranın vasitəsi ilə xəbərdar et”.

فذكر بالقران من يخاف وعيد

Bu, Quranı insanları paklandırmaq və təlimləndirmək üçün vasitə hesab edir. Bu əsasla Qurani-Kərim başqa elmi kitablar kimi təkcə elmi və təbiət məsələləri və ya əxlaq kitabları kimi təkcə öyüd-nəsihət, yaxud üsul və fiqh kitabları kimi üsul və fiqh mənalarını bəyan etməklə kifayətlənmir.

Qurani-Kərim insanları hidayət etmək üçün xüsusi üslublardan istifadə edib ki, biz də onlardan bəzilərini qeyd edirik:

1. Təmsildən (misal gətirmək – red.) istifadə etmək. Bu yolla ağır və ali olan bəhsləri sadələşdirib insanlara çatdırır.
2. Quranın dəlillərinin qarşısında inadkarlıq edənlərin müqabilində onların öz dillərində bəhs edir.
3. Məsələləri bir-biri ilə qarışdırıb başa salır. Məsələn, maarif və əhkamı moizə və əxlaqla, kitabın və hikmətin təlimini nəfsin təzkiyə və tərbiyəsi ilə, nəzəri məsələləri əməli məsələlərlə, icrai məsələləri icrayə zəmanət olan məsələlərlə. Nümunə olaraq, oruc tutmağın ki, hasili təqvadır, onu qarışdırıb; "Oruc tutun, ta təqvalı olasınız" deyərək bəyan edir.
4. Başqalarından nəql olunan sözləri və nəzərləri nəql edərək onların barəsində qəti hakimlik edir. Amma digər elmi kitablar belə deyildir. Quran iki nəfərin işi barəsində söz açandan sonra onların hansının düz olduğunu xüsusi bir formada bəyan edir. Məsələn, Həzrət Adəmin (ə) oğlanlarının arasında olan mübahisəli məsələni nəql edərkən buyurur: "Həqiqətən Allah təqvalıdan qəbul edir" (Maidə-27). Yəni bu iki nəfərdən biri ki, Həzrət Habil idi, onun qurbanı qəbul oldu. Çünki, o, təqvalı idi. Bu baxımdan Qurana "qovl fəsl" deyirlər. "Tariq" surəsinin 13 – 14-cü ayələrində bu barədə buyurulur: "Həqiqətən bu, bir haqq sözdür və

SonUmidTv

zarafat deyil".

انه لقول فصل و ما هو بالهزل

5. Qurani-Kərim ilə başqa elmi kitabların bir fərqi də ondadır ki, Quran təbiətşünaslıq məsələləri ilə Allahı tanımaq məsələlərini bir-birinə bağlayır. Başqa kitablar əşyanı üfuqi cəhətdən bəyan edir. Məsələn, filan mədən neçə milyon il bundan qabaq bəzi hadisələrlə üzləşib və bundan neçə milyon illər sonra başqa bir hadisələrlə üzləşəcək.

   Amma Qurani-Kərim bir nur və hidayət kitabı olduğundan əşyanı əmudi cəhətdən bəyan edərək onların məbdə və məadla olan əlaqələrini də aşkar edir. Məsələn; "Aya, kafirlər görmürlər ki, göylər və yer bitişik idilər, biz onları bir-birindən ayırdıq, hər şeyi sudan diriltdik, iman gətirməmisiniz?" (Ənbiya-30).

اولم یرالذین کفروا ان السموات والارض کانتا رتقا ففتقناهما وجعلنا من الماء کل شیء حی افلا یؤمنون

   Bu cürə ayələrdə başqa elmi kitablardan fərqli olaraq üfuqi cəhətdən bəyan edəndən sonra əşyanın şaquli cəhətinə işarə edərək məbdəi failini, məbdəi qaini və son hədəfini də bəyan edir. Yəni bu işin edəni kimdir və bu işin son hədəfi nədir?

6. Tarixin ibrətli səhifələrini toplayaraq qissə

SonUmidTv

şəklində bəyan edir. Qurani-Kərim tarix kitabları kimi tarixi hadisələrin hamısını yazmır. Bəlkə bəzi bəhsləri bəyan edir ki, o hissə insanların hidayətinə səbəb olur. Sonra bu hissəni sünnəti-ilahi (tarixin fəlsəfəsi) adlandırır. Məsələn, Həzrət Musa (ə)-ın adı Quranda yüz dəfədən çox qeyd olunubdur və o həzrətin qissəsi 28 surədə geniş surətdə bəyan edilibdir. Amma bu qissələrdə o həzrətin viladəti və vəfatının tarixini qeyd edilməyibdir. Fəqət həssas nöqtələrə işarə edibdir. Məsələn, Həzrət Musa (ə)-ın doğulandan sonra anasına Allah tərəfindən onun suya atılmasına dair vəhyin gəlməsi və onun böyüyəndən sonra anasına qaytarılması və peyğəmbər olmasından söhbət açılıbdır. Bunlar da Allaha etiqad etməyin şirin aqibətini və başqa ibrət götürməli nöqtələri nəzərə çatdırır.

7. Quran başqa kitablardan bir cəhətdən də fərqlənir. Quranda olan təlim və maarifə yetişmək üçün ilahi vəhydən istifadə etmək gərəkdir. Amma başqa elmi kitablarda olan təlim və maarifə yetişmək cətin deyil və adi insanlar üçün də bu məsələ mümkündür.

Allah-Təala "Nisa" surəsinin 113-cü ayəsində Peyğəmbər (s)-ə buyurur: "Allah sənə maariflər öyrətdi ki, adi yollarla onları öyrənmək iqtidarında

SonUmidTv

deyilsən”.

وانزل الله عليك الكتاب والحكمة وعلمك مالم تكن تعلم

Bu söhbət təkcə dunyada elmin səviyyəsinin aşağı olan vaxtına aid deyil, bəlkə həmişə və əbədi olaraq Quran bəşərin əli çatmayan elmlərin müəllimidir. Qurani-Kərim xüsusi yerlərdə qeyd edir ki, dünyanın gizli olan sirrlərini ancaq vəhyin nurunda tapa bilərsiniz: “Döyüşmək sizin üçün yazılıb, bu sizə acıdır, amma sizə acı gələn işlərin sizə xeyri olar, bəzən də bir işi sevərsiz, amma o sizin ziyanınızadır, Allah bilir, amma siz bilmirsiniz” (Bəqərə-216).

كتب عليكم القتال وهو كره لكم وعسى ان تكرهوا شيا وهو شر لكم والله يعلم وانتم لا تعلمون

Bu xitab bütün fərdlərə aiddir.

8. Elmi kitablarda adətən bir şeyi bəyan edərkən onun misdaqını* aşkar etməzlər. Amma Quran bunun əksinə olaraq onu bəyan edir. Məsələn, yaxşı və yaxşıları bəyan edərkən buyurur: “yaxşılıq məşriqə və məğribə üz döndərməkdə deyil, lakin yaxşılıq Allaha və qiyamət gününə iman gətirənlərdədir”. (Bəqərə-177).

ليس البر ان تولوا وجوهكم قبل المشرق والمغرب ولكن البر من ءامن بالله واليوم الاخر

9. Quranın üslublarından biri də mətləbi təkrar etməkdir. Çünki, Quran hidayət kitabıdır və hidayət məqamında bir mətləb gərək hər münasibətdə xüsusi bir dil ilə əda olunsun ki, təsirli olsun.

Bunlardan başqa da bir neçə üslublar vardır ki, ixtisarə görə onları qeyd etmirik.

Bəli, yuxarıda dediyimiz xüsusiyyətlər məhz Qurana məxsusdur və bu göstərir ki, Quran çox dərin mənalı bir kitabdır. Ona görə də bu kitabla gərək çox ehtiyatla davranasan. Təfsir və tərcüməsində fikirləşəsən ki, bu kitab Allah kəlamıdır, onu hər necə gəldi məna etmək olmaz.

Həyatda təcrübə etdiyimiz bir məsələyə diqqətinizi yönəltmək istəyirəm. Biz böyük bir alimin kitabına baxarkən, yaxud ondan istifadə edərkən müəllifin savadını və elminin çoxluğunu nəzərə alaraq onun kitabı ilə ehtiyatla davranırıq. Bütün elmlər Allah tərəfindən Quranda cilvələnibdir. Gərəkdir bu kitabla da rəftar edərkən məsuliyyət hiss edək və kimin kitabına rəy və nəzər verdimizi fikirləşək. Bilmədiyimiz məqamlarda acizliyimizi etiraf edib,

bildiyimiz məsələlərdə isə daha mötəbər mənbələrdən istifadə edək, ta inşaallah səhv və xətadan qoruna bilək. Yoxsa yaxşılıq etmək istədiyimiz halda pisliyə düçar olaraq dünyada rüsvay, axirətdə isə əbədi əzab sahibi olarıq. Allaha pənah aparıram axirət əzabından.

Allah-Təala Qurani-Kərimdə onun hökmlərini olduğu kimi çatdırmayanları üç ayədə fasiq, kafir və münafiq adlandırır. Bu dəstənin hər üçü də cəhənnəm əhlidir. "Kim Allah buyuran kimi hökm etməsə" bir ayədə kafir, birində fasiq, üçüncüsündə isə münafiqdir söylənilir. Allahın hökmünü o buyuran kimi çatdırmamaq, ya cahillikdəndir, ya kiminsə xoşuna gəlməkdən ötəridir, ya da ki, insan özünə məğrur olaraq, öz rəyinə əsasən hökm çıxarır. Hər üç sifət pis sifətlərdən olub insanı dünya və axirət rüsvayçılığına düçar edir.

Buna görə də biz hidayət kitabını təhrif edib yuxarıda deyilən sifətləri qazanmaqdan çəkinməli və Allahın qəzəbindən özümüzü qorumayılıq. Yoxsa şeytana itaət edib, onun kimi insanları zəlalətə aparanlardan olarıq.

## *1-ci Dərsin Sualları*

1) ***Quran nazil edildikdən sonra onda hansısa dəyişiklik olubmu və ya gələcəkdə ola bilərmi? Cavabınıza Quranın özündən dəlil gətirin.***
2) ***Quran nə üçün nazil edilib?***
3) ***Quranın ümumbəşəri kitab olmasına dəlil olaraq Qurandan bir ayə gətirin.***
4) ***Quran hansı dildədir? Bir hədislə cavabınızı əsaslandırın.***
5) ***Maarif bəyan etməkdə Quranın başqa kitablardan fərqini bir neçə cəhətdən izah edin.***

## 2-ci DƏRS

*I. Quran elmləri (Ulumi-Quran)*
*II. Quranın ünvanları*
*1. Quranın adları*
*2. Quranın sifətləri*

# Quran elmləri (Ulumi-Quran)

Qurani-Kərimi başa düşməkdən ötrü istifadə olunan elm "Ulumi-Quran" adlanır. Başqa sözlə desək o bəhslər ki, ilahi ayələri başa düşmək üçün verilən təfsirdən qabaq olunur və onunla tanış olmaq hər bir müfəssir və mühəqqiqə lazımdır. Həmən bəhslərin ümumisinə "Ulumi-Quran" deyilir.

Burada Qurana aid olan bəhslər, Quranın nazil olması, tərtibi, toplanması, yazılması, oxunuşu, təfsiri, nasex və mənsuxu və sairə barədə söz açılır.

Quran ilahi vəhy və əbədi möcüzə olduğu üçün islamın əvvəlindən müsəlmanlar bu kitab barədə ciddi çalışmışlar. Əvvəli böyük səhabələr, sonralar isə islam alimləri müxtəlif sahələrdə Quranın təfsiri və başqa cəhətlərinə fövqəladə diqqət yetiriblər. Alimlərin dəqiq nəzərinə görə Peyğəmbər (s)-in səhabələrinin arasında, birinci, Quranın təfsir və elmi ilə məşhur olan Həzrət Əli (ə) oldu. İbni Abbas kimi bir

şəxsiyyət də təfsiri Əli (ə)-dan öyrəndi.

Cəlaləddin Suyuti deyir: Xəlifələr arasında "Ulumi Quran" barədə ən çox rəvayət nəql edən Əli ibni Əbutalibdir.

Əbdullah ibni Abbas, Əbdullah ibni Məsud, Ubey ibn Kəb ibni Qeys də o şəxsiyyətlərdəndir ki, Quranın təfsir və qəraətində yüksək rolları olub və başqaları da onlardan öyrəniblər. Quranın təfsirinin və bəhslərinin yazılışı əsasən II hicri əsrdən başlayıbdır.

## Quranın ünvanları

Müfəssirlərin Quranın adları barədə çoxlu nəzəri-ixtilafları (müxtəlif nəzərləri – red.) vardır. Əbu Futuh Razi öz təfsirində Quran üçün 43 ad qeyd edibdir. Qazi Əbul Məali 55 ad sayıbdır. Bəziləri Quranın adlarını 80-a çatdırıblar. Bu alimlərin Quranın adı ünvanı ilə yazdıqları Qurani-Kərimdə Quranın vəsfi qeyd olunubdur.

Münasib olar ki, Quranın ünvanlarını iki hissəyə bölək və Quranın adları, Quranın sifətləri ünvanında yazaq.

## 1. Quranın adları

Quranın ünvanlarından dördünü "isim" (ad)

surətində işlətmək olar. Buna Qurani-Kərimin özündən dəlil gətirmək mümkündür.

1. Quran: “Bəli, o Qurani-Məciddir” (Buruc-21).

بل هو قرءان مجيد

Bu ad 55 yerdə həmən formada, doqquz yerdə isə “Quranən” قرءانا surətində gəlibdir.

2. Kitab: “Bir kitab, onu sənə nazil etmişik” (Sad-29).

كتاب انزلناه اليك

Bu ünvan yüzə yaxın yerdə işlədilibdir.

3. Zikr: “Bu mübarək zikrdir” (Ənbiya-50 ).

و هذا ذكر مبارك

Bu ünvan da iyirmi yerdə işlədilibdir.

4. Furqan: “Bərəkətli və zail olmayan bir varlıq öz bəndəsinə furqanı aləmlərə nəsihət olmaq üçün nazil etdi”. (Furqan-1).

تبارك الذى نزل الفرقان على عبده ليكون للعالمين نذيرا

Kitab, zikr və furqan başqa asimani kitablara da ünvan kimi qeyd olunubdur. Amma təkcə “Quran” ünvanı bu kitabda (əlimizdə olan Quran) ad kimi göstərilibdir.

# 2. Quranın sifətləri

Bu qismətdə Qurana vəsf ünvanında ünvanlanmış kəlmələri qeyd edək.

1. Məcid
2. Kərim
3. Həkim
4. Əzim
5. Əziz
6. Mübarək
7. Mubin
8. Mutəşabih
9. Məsani
10. Ərəbi
11. Qeyri zi'ivəc - غیر ی ذي عوج
12. Zi əzzikr - ذی الذکر
13. Bəşir
14. Nəzir
15. Qəyyim

Həzrət Peyğəmbər (s) dunyadan köçəndən sonra bir ad da Qurana əlavə olundu və çox geniş yer tutdu. Bu da "Mushəf" adı idi. Quranın bu adla adlanmağının səbəbi onun yazılması idi. "Səhifə" açıq olan bir şeyə deyərlər. Quran açıq səhifələrə yazıldığı üçün ona bu ad sonradan itlaq edildi. "Mushəf"

“Səhifə” nin cəmi olduğuna görə Qurana itlaq olundu. Amma Peyğəmbər (s)-ın zamanında ən məşhur olan adlar həmin Quranda gələn adlar idi. Buna nəbəvi hədislər də dəlalət edir. Məsələn, Həzrət Peyğəmbər (s) buyurur: “O zaman ki fitnələr gecə qaranlıqları kimi sizi çaşdırdı, onda Qurana müraciət edin”.

اذا التبست عليكم الفتن كقطع الليل المظلم فعليكم بالقران

və ya; “Quranın başqa kəlamlara nisbət fəziləti, Allahın məxluqa nisbət fəziləti kimidir”.

فضل القران على سائر الكلام كفضل الله على خلقه

Başqa bir yerdə buyurur: “Mən sizin aranızda iki dənə çox qiymətli şey qoyub gedirəm, Allahın kitabı və itrətim”.

انى تارك فيكم الثقلين كتاب الله و عترتى

Gördüyünüz kimi bu hədislər dediyimiz məqsədi təsdiqləyir.

### *2-ci Dərsin Sualları*

1) ***“Quran Elmləri” hansı elmə deyilir?***
2) ***“Quran Elmləri”-ndə hansı mövzudan bəhs olunur?***
3) ***“Quran Elmləri” barədə ən çox rəvayət nəql edən***

***kimdir?***

4) ***Quranın adı və sifətləri barədə məlumat verin.***

**3-cü DƏRS**

***I. "Quran" kəlməsinin mənası***

***II. Quranın ərəb dilində olmasının səbəbləri***

## "Quran" kəlməsinin mənası

Quran kəlməsinin mənası haqqında beş cür fikir söylənib. Onların hamısından artıq nəzərə çatan budur: Quran قران "qərəə"قراء maddəsindən olub oxumaq mənasındadır. Bu sözümüzə dəlil olaraq göstərə bilərik: birinci vəhy ki, Peyğəmbər (s)-ə nazil oldu, həmən oxumaq اقراء maddəsi ilə başlandı. Bundan əlavə də başqa ayələrdə də bu məqsədi təsdiqləyən məqamlar vardır.

## Quranın ərəb dilində olmasının səbəbləri

1. Allah-Təala Quranda buyurur: "Biz elçimizi öz qövmünün dilində göndəririk". Yəni, Həzrət Peyğəmbər (s)-in bir ərəb olaraq ərəbcə danışdığına və yaşadığı mühitin də ərəb mühiti olduğuna görə Quran Ərəb dilində nazil olub.
2. Dilçi alimlərin nəzərinə görə ərəb dili başqa dillərə nisbətən çox tutuma malikdir. Yəni, az kəlmə ilə

çoxlu məna ifa etmək mümkündür. Ona görə də Quran bu dildə nazil olub.

3. Ərəb ləhcələri çoxdur. Quranın ərəbin fəseh dilində nazil olması onu digər ərəb ləhcələrindən qoruyub saxlayıb.

### *3-cü Dərsin Sualları*

1) ***"Quran" kəlməsi hansı maddədəndir və mənası nədir?***
2) ***Quran nə üçün lüğət etibarı ilə ərəb dilində nazil edilib?***

## 4-cü DƏRS

*I. Vəhyin tərifi*
*II. Vəhyin lüğəvi mənası*
*III. Vəhy istilahda*
*IV. Quranda "vəhy" kəlməsi*

# Vəhyin tərifi

Bildiyimiz kimi Quran Həzrəti Peyğəmbərə (s) vəhy formasında nazil olubdur. Quran ayələrinin birində Allah-Təala Həzrət Peyğəmbər (s)-ə "ummi" امی deyərək müraciət edir. "Ümmi" sözünün mənası bu ayədə məktəb oxumayan, dərs oxumayan mənasındadır. Peyğəmbərimiz (s) Ərəbistan yarımadasında yaşayıb. O zaman orada heç bir məktəb olmadığı üçün dərs oxumamışdır. Quran da çox dərin mənaya malik olan bir kitabdır. Fəsahət və bəlağət cəhətindən də çox yüksək bir məqama malikdir. Məktəb görməyən bir insanın Quran kimi bir kitabı camaata çatdırması böyük bir möcüzədir. Adi yollarla, insan təliminin vasitəsilə bu cür dərin mənalı bir kitabı vücuda gətirmək mümkün deyildir. Bu da, Quranın vəhy formasında nazil olmasının təkzibedilməz bir subutudur. Bu məqsədə Quranın müxtəlif ayələrində işarə olunub.

"Onu (Peyğəmbər (s)-i) çox qüvvətli bir varlıq öyrətdi", yəni vəhy yolu ilə." Odur ki, bu deyilənləri nəzərə alaraq vəhy haqqına bir qədər geniş mənada söhbət açaq.

## Vəhyin lüğəvi mənası

Ərəb dilində vəhy – işarə etmək, yazmaq, ilham, gizli kəlam və başqasına çatdırılan hər hansı bir şeyə deyilir.

Rağib İsfəhanı deyir: Vəhy, çox sürətli işarəyə deyilir. Bu kəlamda rəmz və kinayə ilə, ya ləfzi olmayan səs, ya bəzi üzv ilə işarə və yaxud yazmaqla mümkündür.

## Vəhy istilahda

Vəhy istilahda, asimani bəyənatı almaqdan ötəri ilahi peyğəmbərlərin qeyblə olan mənəvi rabitəsinə deyilir. Həmən vəhyi almağa xüsusi adamların ləyaqəti vardır ki, onlar da peyğəmbərlərdir.

## Quranda "vəhy" kəlməsi

Quranda vəhy kəliməsi təqribən 10 mövzuda işlədilibdir. Bu kəlmə mələklərin, şeytanların, insanın, heyvanın və yerin barəsində qeyd olunubdur. Bu söz

SonUmidTv

ən çox peyğəmbərlərə aid olan rabitə haqqında varid olubdur.

Quranda nazil olan "vəhy" kəlmələrindən bir neçə nümunəni nəzərinizə çatdırırıq.

1. Mələklərə ruhani ilhamdan belə söhbət açılır: "Sənin Allahın mələklərə vəhy etdi; mən sizinləyəm" (Ənfal-12).

اذ یوحی ربك الی الملئکة انی معکم

2. İnsana ruhani ilham: "Musanın anasına vəhy etdik ki, ona süd ver" (Qəsəs-7).

و اوحینا الی ام موسی ان ارضعیه

3. Şeytani vəsvəsə barədə buyurur: "Həqiqətən şeytanlar öz dostlarına vəsvəsə edir ki, sizinlə müharibə etsinlər" (Ənam-121).

و ان الشیاطین لیوحون الی اولیا ئهم لیجادلوکم

4. Heyvana ilham etmək barədə buyurur: "Sənin Allahın bal arısına ilham (ğərizi) etdi"(Nəhl-68).

واوحینا ربك الی النحل

İmam Əli (ə)-dan nəql olunan bir rəvayətdə yuxarıda dediyimiz vəhy növlərinin hamısına işarə edilib, həmən ayələr də dəlil gətirilibdir.

## *4-cü Dərsin Sualları*

1) ***Vəhyin tərifini deyin.***
2) ***Vəhyin lüğəvi və istilahi mənalarını izah edin.***
3) ***Quranda adları çəkilən vəhy növləri barədə danışın və peyğəmbərlərə olunan vəhylə digər vəhy növləri arasında fərq(lər)i izah edin.***

## 5-ci DƏRS

*I. Peyğəmbərlərə olunan vəhyin növləri*
*II. Vəhyi-müstəqim (birbaşa)*
*III. Qeyri-müstəqim vəhy*

## Peyğəmbərlərə olunan vəhyin növləri

Söhbətimizin bu hissəsində "Vəhyin" ən çox işləndiyi yer haqqında, yəni peyğəmbərlərə olunan vəhy barəsində danışacağıq. "Vəhy" və bu mənada olan sözlər Quranda peyğəmbərlərin barəsində 70-ə yaxın yerdə istifadə olunmuşdur. Bu kəlmə başqa yerlərdə çox az işlədilibdir. Buna əsasən də Əllamə Təbatəbai (rahmətullahi ələyh) buyurur: "Dini ədəbə görə gərək "vəhy" kəlməsini ənbiyadan başqa yerlərdə işlətməyək".

Vəhy – başqa bir aləmlə (qeyb aləmi) rabitə olduğuna görə adi insanlar üçün adi yollarla mümkün deyil. "Vəhy" – bir növ asimani (qeyri maddi) danışıqdır. Hiss və fikir yolu ilə dərk olunmur. Bəlkə, başqa bir dərk və şuurdur ki, Allahın istəyi ilə bəzi adamlarda vücuda gəlir və qeybi dəsturlar (hiss və əqlin dəxaləti olmadan) ilahi təlimlərin vasitəsi ilə həmən adamlara çatdırılır.

Başqa bir ibarətlə vəhyi belə tərif etmək yaxşı olardı: "Vəhyin həqiqəti təkcə peyğəmbərlərə məlumdur. Ona görə ki, ancaq onlar vəhyin müxatəbi olublar. Vəhy bir növ asimani təkəllümdür (danışıq – red.). Onu hiss və əql yolu ilə dərk etmək mümkün deyildir və xüsusi şuur tələb edir. Bu da Allahın iradəsi ilə seçilmiş adamlarda olur. Onlar da qeybi bəyənatları hüzuri elm* ilə əldə edir, ona uyğun olaraq vəzifələrinə əməl edir.

Peyğəmbərlərin zamanında Allahçılıqda, həqiqətlə, bəşərin şərafət və ləyaqəti ilə, insanların ali qanunlara tabe olub, o qanunlar vasitəsi ilə şərəflənməyi ilə müxalif olub, həmişə bəşəriyyəti cəhalət zülmətində, rəzalətdə saxlamaq istəyənlər vəhyin dediyimiz kimi ağır bir məfhum olduğunu dərk edə bilməyib cürbəcür bəhanələr gətirirdilər. Həzrət Peyğəmbərə (s) cünun, sehrbaz adı qoymaqla, ya "əgər Allah istəsəydi mələk nazil edərdi" deməklə camaatı bu həqiqətdən uzaqlaşdırırdılar.

Bu gün, modern bir cahiliyyət dövründə o vaxtda olan müşrik və kafirlərin həqiqətin qarşısında çıxartdıqları aldadıcı, çirkin fikirlərin təsirdən düşdüyü bir gündə, modern müşriklər yeni-yeni çirkin fikirlər yürüdürlər ki, o zamanda olan həqiqət müxaliflərinin yolunu davam etdirsinlər. İnsanları ali qanunlardan, vəhy şərbətindən binəsib edib müasir

SonUmidTv

cəhalət zəncirlərinə bağlasınlar. Əlbətdə bu barədə geniş söhbəti yazımızın sonunda qeyd etməyi nəzərdə tutmuşuq. Amma, yeri gəlmişkən bu məqsədimizi nəzərə çatdırmaq yaxşı olar.

Qayıdaq mövzumuza. Allah ilə peyğəmbərlər arasında olan qeybi rabitə ki, ona "vəhy" deyilir, üç yol ilə mümkündür. Buna Quran ayəsi dəlalət edir: "Hec bir bəşərlə Allah-Təala vəhy yolundan, ya hicab arxasindan ünsiyyət və ya elçi göndərmək yolundan başqa bir yolla söhbət etməyib". (Şura-51).

و ما كان لبشر ان يكلمه الله الا وحيا او من ورا ئ حجاب او يرسل رسولا فيحى باذنه ما يشاء

Bu ayədə insanla Allahın rabitəsinin üç yolla olduğu bildirilir. Birinci, vəhy - vasitəsiz və müstəqim bir rabitə, ikincisi hicab arxasından, üçüncüsü isə, elçi ki, burada hər iki yerdə mələk vasitədir.

Başqa bir sözlə desək, üç qism vəhy aşağıdakılardan ibarətdir:

1. Allah-Təala ilə xəlq arasında vasitəsiz olaraq vücuda gələn rabitə,
2. Hicab arxasından eşidilən söhbət. Necə ki, həzrəti Musa dağda o səsi eşidərdi,
3. Allah tərəfindən mələk nazil olub bəşərə ilahi danışığı çatdırır.

## Vəhyi-müstəqim (birbaşa vəhy)

Vəhyin ən çətin növü birbaşa olan vəhydir. Bu vaxt peyğəmbər (s) bütün vücudu ilə vasitə olmadan "məbdə" ilə əlaqəyə girirdi. Bu işin nə dərəcədə çətin olması bizim üçün çətin dərk olunan bir məsələdir. Amma Quran ayələrinin və islam hədislərinin verdiyi açıqlamalarla bu məsələ bir az yüngülləşir.

Həzrət Peyğəmbər (s)-in fövqəladə və quvvətli bir ruhiyyəyə malik olmasına baxmayaraq, o həzrətin bu vəhyi çətinliklə qəbul etməsi "müstəqim vəhyin" çətin və əzəmətli olduğunu göstərir.

Əminül-İslam Təbərisi "Müzəmmil" surəsinin 5-ci ayəsinin təfsirində Haris ibni Hişamın vasitəsilə Həzrət Peyğəmbər (s)-dən bir hədis nəql edibdir. Həzrət Peyğəmbər (s) Hişamın "vəhy sizə necə nazil olur?" sualının cavabında buyurur: "Bəzən zəng səsi kimi nazil olur. Bu vəhyin ən ağır növüdür ki, mənə nazil olur. Mən çox yoruluram. Ona qulaq asarkən əzbərləyirəm".

Abdullah ibni Ömər deyir: Peyğəmbərdən (s) vəhyi necə hiss etməyindən soruşdum. O Həzrət (s) cavabında buyurur: zəng səsləri eşidirəm. Bu vaxt sakit qalıram. Hər dəfə bu formada vəhy qəbul edəndə az qalır canım vücudumdam xaric olsun.

Ayişədən nəql olunur: çox soyuq bir gündə o Həzrətə (s) vəhy nazil oldu. Vəhy tamam olandan

SonUmidTv

sonra o Həzrətin (s) alnından tər axırdı.

Bəzi tarix kitablarında başqa halətlər də nəql ediblər: Vəhydən sonra soyuq su ilə yuyunardı, rəngi qızarar, ya göyərərdi. Bəzən o qədər ağır olardı ki, Həzrətin (s) mindiyi heyvan hərəkət edə bilməzdi. Bəzən də baş ağrısına düçar olardı.

Bu deyilənləri "Müzəmmil" surəsinin 5-ci ayəsi də təsdiq edir: "Həqiqətən biz tezliklə sənə ağır bir danışıq çatdıracağıq".

انا سنلقى عليك قولا ثقيلا

## Qeyri-müstəqim vəhy

"Şüəra" surəsinin 192 – 194-cü ayələrində Allah-Təala buyurur: "Həqiqətən bu (Quran) aləmlərin Rəbbinin vəhyidir. Onu Ruhul-Əmin sənin ürəyinə nazil edibdir ki, nəsihət edənlərdən olasan.

نزل به الروح الامين
وانه لتنزيل رب العالمين

Bu ayədə ürəkdən məqsəd insani nəfsdir ki, idraka malikdir və insanın bütün hiss və iradəsi ona bağlıdır. Ayə bununla (qəlb kəlməsini işlətməklə) zahiri qüdrətin vəhyi almaqda dəxalətinin olmadığını bildirir.

Başqa bir sözlə desək Həzrət Peyğəmbər (s),

bütün vücudu ilə bu vəhyi qəbul etmişdir. Əgər belə olmasaydı, yəni zahiri əzaların vəhyi almaqda dəxaləti olsaydı, onda peyğəmbər olmayanlar da vəhyi ala bilərdilər.

Vasitəli vəhydə (qeyri-müstəqim vəhy) Cabrail bəzən bəşər surətində Peyğəmbərə (s) nazil olurdu. İmam Sadiq (ə)-dan bu barədə olan bir hədisdə belə nəql olunur: "Cəbrail Peyğəmbərin (s) hüzuruna gələndə bəndələr kimi əyləşərdi və icazəsiz daxil olmazdı".

كان جبرئيل اذا اتى النبى قعد بين يديه قعدة العبد و كان لا يدخل حتى يستاذنه

Bu hədis Həzrət Peyğəmbər (s)-in Cabrail qarşısında əzəmətini göstərir. Buna görə də bu forma vəhy almaq Həzrət Peyğəmbərə (s) çətin bir iş deyildi.

Bəzən də Cabrail Peyğəmbərə (s) Dəhyət ibni Xəlifə Kəlbinin surətində nazil olurdu.

Bəzi ayələrdən məlum olur ki, Cəbrailin "əmini-vəhy" olmasına baxmayaraq ayə nazil olan zaman, o, bir dəstə mələyin vasitəsi ilə müşayət olunardı.

### *5-ci Dərsin Sualları*

1) ***Peyğəmbərlərə olunan vəhyin növləri barədə danışın və nümunələr gətirməklə fərqlərini izah***

***edin.***

2) ***Birbaşa və vasitəli vəhy arasında fərqi izah edin.***

## 6-cı DƏRS

*I. Quranın nazil olması və besət*
*II. Nuzuli-dəfi*
*III. Nuzuli-tədrici*
*IV. Tədrici nuzulun sirrləri*

# Quranın nazil olması və besət

Bildiyimiz kimi Həzrət Peyğəmbər (s) miladi tarixi ilə 610 – 611-ci illərdə, 40 yaşında Məkkə şəhərində peyğəmbərliyə təyin edildi. Onu da bilirik ki, Həzrət Peyğəmbərə (ə) ilk nazil olan ayə "Ələq" surəsinin ayələrindən idi. Həzrət Peyğəmbərə (s) ilk ayələr Həra mağarasında nazil oldu. Bu məsələdə bütün müsəlmanlar müttəfiqdirlər. Amma bu məsələnin hansı zamanda baş verməsi ixtilaflıdır. Şiələr çoxlu mötəbər rəvayətlərə əsaslanaraq bu hadisənin rəcəb ayının 27-də baş verdiyini qeyd edirlər. Bu barədə olan hədislər Peyğəmbərin (s) Əhli-Beytinin vasitəsi ilə nazil olub. Onlar Peyğəmbərə (s) yaxın olduğu üçün hamıdan yaxşısını bilmələri şübhəsizdir.

Şeyx Tusi "Əmali" kitabında İmam Sadiq (ə)-dan nəql edərək yazır: "İyirmi yeddi rəcəbdə peyğəmbər (s) seçilibdir. Kim bu günü oruc tutsa,

altmış ay oruc tutanın əcrini qazanır".

Bundan başqa da Əimmədən (a) (imamlar – red.) çoxlu rəvayətlər vardır ki, onlar da besətin (Peyğəmbərin (s) təyin edilməsinin – red.) rəcəb ayının 27-də olduğunu bəyan edir. Bir sıra mötəbər hədislər Quranın rəcəb ayının 27-də nazil olduğunun bildirir. Bundan əlavə rəvayətlər də vardır ki, Quran 20 il müddətinə nazil olmuşdur.

Quranın bəzi ayələrində isə onun ramazan ayında, Qədr gecəsində nazil olduğu bildirilir. Məsələn "Bəqərə" surəsinin 185-ci ayəsində belə buyurulur: "Ramazan ayı bir aydır ki, Quran bu ayda nazil olubdur".

شهر رمضان الذی انزل فیه القران

"Duxan" surəsinin 3-cü ayəsində belə buyurulur: "Biz onu (Quranı) mübarək bir gecədə nazil etdik".

انا انزلناه فی لیلة مبارکة

"Qədr" surəsinin 1-ci ayəsində belə qeyd edilir : "Biz onu (Quranı) Qədr gecəsində nazil etdik".

انا انزلناه فی لیلة القدر

Bu mötəbər hədislər və bu Quran ayələri bir-biri ilə uzlaşanda hansı nəticə meydana çıxır, necə izah olunur?

Həmən nəticə və izahı aydınlaşdırmaq üçün bir

məsələdən xəbərdar olmaq lazımdır. O da Quranın nazil olmasının iki cür olmasını bilməkdir. Bəli, Quranın nuzulu iki formada olubdur:

1. Nuzuli dəfi
2. Nuzuli tədrici

## Nuzuli-dəfi

Bir çox şiə və sünnü rəvayətlərinin təkidinə əsasən Quranın nazil olması iki formada olubdur. Onlardan biri nuzuli dəfidir.

Cəlaləddin Suyuti yazır "Qurani-Kərimin nazil olmasında üç nəzər vardır: Birinci nəzər – Quran bütöv şəkildə Qədr gecəsində dünya göyünə nazil olub, sonra tədriclə 20 il, ya 23 il müddətində Peyğəmbərə (s) nazil olubdur.

Səd ibni Cübeyr bu məzmunda olan bir hədisi ibni Abbasdan nəql edibdir.

İkinci nəzər – Quranın bir miqdarı hər Qədr gecəsində dünya göyünə nazil olub, sonra bir il müddətində həmən miqdar Həzrət Peyğəmbərə (s) çatdırılıbdır.

Üçüncü nəzər – Ramazan ayında Quranın nazil olmasından məqsəd, onun başlanğıcı deməkdir. Sonralar mütəfərriq surətdə (ayrı-ayrı formalarda) Quran nazil olmuşdur.

Amma imamiyyə rəvayətlərindən belə məlum olur ki, Quran bir dəfədə dördüncü göydə "beytül məmur" adında bir yerdə nazil olubdur. Sonradan 23 illik Peyğəmbərin (s) risalət dövründə tədriclə Peyğəmbərə (s) nazil olubdur.

Əllamə Təbatəbainin (rahmətullahi ələyh) bu barədə başqa bir nəzəriyyəsi vardır. Onun xülasəsi belədir: Ramazan ayında nazil olan ayələrdən məqsəd Quranın bir dəfədə nazil olmasıdır. Lakin Quran bir dəfədə Peyğəmbərin (s) qəlbinə nazil olubdur. Sonra peyğəmbərin (s) risaləti dövründə o, (Quran) ayə - ayə camaata çatdırılıbdır. Əllamə öz nəzərini təsdiq etmək üçün Quranın iki ayəsini dəlil gətirir: Birincisi – "Qiyamət" sürəsinin 19-cu ayəsi; "Tələsərək dilini Quranı oxumağa tərpətmə, Çünki Quranın toplanması və qəraəti bizim öhdəmizdədir".

ولا تحرك به لسانك لتعجل به ان علينا جمعه وقرانه

İkincisi – "Taha" surəsinin 114-cü ayəsi; "Quran oxuyanda vəhy tamam olmamış tələsmə".

ولا تعجل بالقران من قبل ان يقضى اليك وحيه

Dediyimiz kimi mərhum Əllamə bu ayələri Quranın bir dəfədə Peyğəmbərin (s) qəlbinə nazil olmasına dəlil gətirir. Quran bir dəfədə ona nazil olub, sonralar hansı ayənin camaata çatdırılması Allah

tərəfindən ona göstəriş verilmişdir. O Həzrət Qurandan xəbərdar olduğu üçün onu oxumağa və camaata çatdırmağa çalışırdı.

## Nuzuli-tədrici

Yuxarıda "nuzuli-dəfi"dən söhbət açdıq və bir qədər də "tədrici nüzül"a işarə olundu. İndi isə "nuzuli tədrici"nin barəsində bir qədər geniş mülahizə aparaq.

Quranın tədriclə nazil olması haqda tarixi dəlillər vardır. Bundan əlavə əsaslı surətdə Quranın öz ayələri bu məqsədə dəlalət edir.

"İsra" surəsinin 106-cı ayəsində belə buyurulur: "Quranı hissə-hissə sənə nazil etdik ki, onu aramla camaata oxuyasan və onu tədriclə nazil etdik".

و قرانا فرقناه لتقرئه على الناس على مكث ونزلناه تنزيلا

"Furqan" surəsinin 32-ci ayəsində buyurulur: "Kafirlər dedilər, nə üçün Quran bir dəfəyə ona (Peyğəmbərə (s)) nazil olmayıb".

و قال الذين كفروا لولا نزل عليه القران جملة واحدة

Bu ayədən (Furqan-32) istifadə olunur ki, Quran tədriclə nazil olduğuna görə kafirlərin etirazına

səbəb olmuşdur.

Ramazan ayında nazil olub "nuzuli-dəfi"yə dəlalət edən ayələrlə, "nuzuli-tədrici"yə dəlalət edən ayələri müqayisə etsək məlum olur ki, onların arasında hec bir ziddiyət yoxdur. Bəlkə hər dəstə bir növ nazil olmağa dəlalət edir. Gündəlik iqtisadi, ictimai, yaxud sülh və müharibə kimi məsələlər Quranın tədriclə nazil olmasını iqtiza edir. Quran da öz növbəsində bu formada o məsələlərə cavab verir.

Quranın həqiqətindən, bütöv bir kitab olmasından söhbət açanda isə "nuzuli dəfi"yə dəlalət edən ayələr cilvələnərək məsələyə aydınliq gətirmişdir.

## Tədrici nuzulun sirrləri

Quranın nuzulunun tədrici olmasının müxtəlif hikmətləri vardır. Onlardan bəzilərinə işarə edək:

1. Quran, kafirlərin "niyə bir dəfəyə nazil olmayıb" etirazına belə cavab verir: "Biz Quranı tədriclə nazil etdik ki, sənin qəlbini onun vasitəsi ilə möhkəmləndirək" (Furqan-32).

لنثبت به فؤادك

Ayələrin tədriclə nazil olması böhranlı vaxtlarda, müharibələrdə və sıxıntılı müddətlərdə Peyğəmbərə (s) dildarlıq edir və yaxşı arxa olaraq onun qəlbinə

qüvvət gətirirdi. Şübhəsizdir ki, Peyğəmbəri (s) səbrə və istiqamətə çağıran ayələr bir dəfəyə nazil olsaydı təhlükəli vaxtlarda o qədər təsirli olmazdı. Amma hər dəfə çətinliklə üzbəüz olanda bu ayələrin nazil olmasının xüsusi təsiri var idi.

Baxın, yolunu azmışlar Həzrət Peyğəmbərə (s) hər dəfə çirkinlikə töhmətlər vurub narahat edəndə Allahın tərəfindən ayə nazil olur, əmin olan mələk gəlir, Peyğəmbərə (s) baş çəkir, ona ürəkli olmağı tövsiyyə edir və onu narahatçılıqdan qurtarıb gələcəyə ümidini daha da çox artırırdı: "Onların sözləri səni qəmgin etməsin, həqiqətən biz onların aşkar etdiklərini və gizlətdiklərini bilirik". (Yasin-75).

فلا يحزنك قولهم انا نعلم ما يسرون وما يعلنون

Başqa bir yerdə, düşmənlər tərəfindən Peyğəmbər (s) təkzib olunanda Quran ona belə təskinlik verir: "Səndən əvvəl də Peyğəmbərlər təkzib olunublar, əziyyət görüblər, amma onlar bu əziyyətlərin qarşısında bizim köməyimiz gələnə qədər səbr ediblər". (Ənam-34).

ولقد كذبت رسل من قبلك فصبروا ما كذبوا و اوذوا حتى اتاهم نصرنا

Bu cür ayələrin həssas zamanlarda, müsəlmanların çətin vaxtında nazil olması həm Peyğəmbərə (s) təskinlik idi, həm də müsəlmanların

möhkəmlənməyinə səbəb olurdu. Təsəvvür edin müsəlmanların vəziyyətini, o zamanlarda: sayları az, düşmənləri çox, qarınları ac, hər yerdən əlləri üzülüb, Quranın təbiri ilə desək, yer üzü onlara daralıb, pənah tapa bilməyən bir zamanda, qüdrəti və gücü, rəhməti və bərəkəti, məhəbbət və sevgisi bütün qüvvələrdən çox olan, nəinki çox olan, həqiqətdə bu saydıqlarımızı vücuda gətirib yaradan bir Allahın tərəfindən sənə kömək gəlir, sənə təskinlik və pənah yeri göstərilir, nə dərəcədə insanın qəlbi rahatlıq tapar və öz hədəfinə çatmağa ümidvar olar.

Bəli, "tədrici nuzul"un bir hikməti bu idi.

2. Bildiyimiz kimi Quran səmavi bir kitabdır. İnsanların dünya və axirət müqəddəratını həll edir. Maddi və mənəvi məsələlərin hamısının düzgünlüyü ondan asılıdır. İnsanların ictimai və fərdi məsələlərinin hamısı ona bağlıdır. İnsanlar şagird, Quran isə müəllim timsalındadır. Ona görə də gərək tədriclə çatdırılsın ki, xalq onun vasitəsilə təlimlənsin.
3. Quran tədriclə nazl olduqca Peyğəmbərin (s) səhabələri tərəfindən əzbərlənir və bu vasitə ilə də təhrif olunmaqdan qoruyub saxlanılırdı.
4. Quranın ayələrini Peyğəmbər (s) zamanında baş verən hadisələrin çoxu ilə sıx əlaqəsi var idi. Hər vaxt bir hadisə yaxud irad meydana çıxırdı, Quran

SonUmidTv

yerindəcə onlara münasibət bildirib, diş sındıran cavablar verirdi. Bu da tədriclə nazil olmanın hesabına vücuda gəlirdi. Ayələrin nazil olmasına gətirib çixarıan hadisələrə "səbəbi nuzul", yaxud "şəni nuzul" deyirdilər.

## *6-cı Dərsin Sualları*

1) ***Besət (və ya məbəs) nədir? Ümmətə rəhbərlik etmək səlahiyyətinə malik olacaq peyğəmbəri kim seçir; xalqmı və ya Allahmı?***
2) ***Besət (və ya məbəs) harada və nə vaxt baş verib?***
3) ***Nuzuli-dəfi və nuzuli-tədrici nədir və aralarındakı fərq nədir?***
4) ***Nuzuli-tədricinin faydalarını sadalayın və deyin görək əgər Quran yalnız nuzuli-dəfi yolu ilə nazil olsaydı nə olardı?***

## 7-ci DƏRS

*I. Nuzul səbəbləri nə deməkdir*
*II. "Nuzul səbələri" ni tanımağın faydaları*

## Nuzul səbəbləri nə deməkdir

Keçən fəsildə bəyan olunduğu kimi Quranın ayələri tədriclə və müəyyən müddətə nazil olubdur. Quranın tədriclə nazil olmasının bir məsələ ilə əlaqəsi vardır. Ona da "nuzul səbəbləri", yaxud "şəni-nuzul" deyirlər.

Ümumiyyətlə Quran ayələri iki hissəyə bölünür: Birincisi; ümumi camaatı hidayət və irşad etmək üçün xüsusi bir səbəbə görə nazil olmayan ayələr. Yəni bu ayələrin nazil olmağında məqsəd insanları hidayət etməkdir. Xüsusi bir hadisə, yaxud nə isə baş verməyib ki, ona görə ayə nazil olsun.

İkincisi; bəzi ayələrin nazil olmasına xüsusi bir duyğu səbəb olmuşdur. Quranın ayələrindən və surələrindən çoxu Peyğəmbərin (s) risaləti dövründə baş verən hadisələrlə əlaqədar və ya ondan olunan suallara cavab olaraq nazil olmuşdur. Bu səbəblərə "nuzul səbələri" yaxud "şəni-nuzul" deyirlər.

# “Nuzul səbələri” nin tanımağın faydaları

1. Quranda təşri olan hökmün (şəriət hökmü – red.) illət (səbəb – red.) və fəlsəfəsini tanımaq.
2. Hər bir söz müxtəlif mövqelərdə, müxtəlif mənalar verə bilir. Sözün anlayışını düzgün başa düşmək üçün başqa əlamətlər də lazımdır. Məsələn, bu sözdə məqsəd sualdır, danlamaqdır, sərzənişdir (başa vurma, ayıltma – red.), təkiddir, ya bəlkə istehzadır – bilməkdən ötrü “nuzul səbəb” lərini bilmək çox zəruridir.
3. Bəzən ayələrdə ya hökmdə insana təvəhhüm (anlayış – red.) gəlir. “Nuzul səbəb”lərini bilmək bu xəyalı insandan uzaqlaşdırır.
4. Xüsusilə Quranı təfsir etmək “nuzul səbəbləri”ni bilmədən mümkün deyil. “Nuzul səbəbləri”ni bilməyin Quranın təfsirində dəxaləti olan ayələrdən birini nümunə ünvanında qeyd edirik: “Bəqərə” surəsinin 115-ci ayəsində buyurulur: “Məşriq və məğrib Allaha məxsusdur, hansı tərəfə üz çevirsəniz, ora üzü Allahadır”.

   ولله المشرق والمغرب فاينما تولوا فثم و جه الله

   Ayənin zahirindən belə məlum olur ki, namaz vaxtlarında üzünü hansı tərəfə döndərsən olar. Amma ayənin “şəni nuzulu”na müraciət edəndə məlum olur ki, bu, səfərdə nafilə namazı qılmağa

aiddir.

Dediyimiz kimi ayənin nə vaxt, nə üçün, hansı mövzuya aid olduğunu bilməsək, ona düzgün təfsir vermək mümkün deyil. Yuxarıda göstərdiklərimiz "nuzul səbəbləri"ni tanımağın bəzi faydaları idi. Belə düşünürəm ki, bu yazı üçün bu miqdar kifayət edir.

Onu da qeyd etmək lazımdır ki, "nuzul səbəbləri"ni rəvayətlərin vasitəsi ilə əldə edirik. O da məlumdur ki, rəvayətlərdən bəziləri etibarsız olurlar. Belə olan halda nə etməli? "Nuzul səbəbləri"ni bilməyin bu qədər faydası olan halda etibarsız rəvayətlərlə necə keçinməliyik?

Söylədiyimiz bu məsələdə, əgər rəvayət səhih və mötəbər olan halda, onun düzgünlüyünə yəqinimiz olarsa, o rəvayətin hökmünə uyğun əməl olunur. Əks halda həmən rəvayət ayə ilə uzlaşdırılır, ayənin məzmunu və onun ətrafında olan başqa qərinələrlə uyğunlaşmasa, o rəvayətə etibar olunmur. Ondan səhih və mötəbər rəvayətlər və yollar tapılır ki, Quranın ayələri o vasitələrlə düzgün təfsir olunur.

### *7-ci Dərsin Sualları*

1) ***"Şəni-Nuzul" nə deməkdir?***
2) ***"Şəni-Nuzul"u bilməməyin ziyanı nədir?***

## 8-ci DƏRS

*I. Quranda “ayə” və “surə”*
*II. “Ayə” sözünün mənası*
*III. “Surə” sözünün mənası*
*IV. Quranın surələrə bölünməsinin səbəbi*
*V. Quran surələrinin adları*
*VI. Surələrin bölümü*
*VII. Quranın surələrinin, ayələrinin və kəlimələrinin sayı*
*VIII. Birinci, axırıncı ayə və surələr*
*IX. Məkkədə və Mədinədə nazil olan ayələr*

## Quranda “ayə” və “surə”

Quran 114 surədən təşəkkül tapmışdır. Hər surə də neçə ayədən ibarətdir. Söhbətimizin bu hissəsində surənin, ayənin mənaları haqqında, surə və ayələrin sayı haqqında, habelə surələrin adları və toplanması haqqında bəhs edəcəyik.

## “Ayə” sözünün mənası

Lüğətdə “ayə” kəlməsi – aydın nişanə və əlamət mənasınadır. Quranda isə bu söz müxtəlif mənalarda işlənilibdir:

I – nişanə və əlamət (Məryəm-10). “İlahi, mənə bir nişanə qərar ver”.

رب اجعل لی ایة

II – möcüzə (Əras-73). “Bu Allahın dəvəsidir ki, sizin üçün möcüzədir”.

هذه ناقة الله لكم ایة

III – Hökm (Bəqərə-106). “Hər hansı hökmü nəsx etdik, ya unutdurduq, ondan yaxşısını, ya onun kimisini gətirirk”.

ما ننسخ من ایة او ننسها نأت بخیر منها او مثلها

IV – İlahinin nəbiləri və övliyaları (Yusif-7). “Həqiqətən Yusif və qardaşlarında, soruşanlar üçün ibrətlər vardır”.

ولقد كان فی یوسف و اخوته ایات للسائلین

Bunlardan əlavə də Quran istilahında “ayə”, Quranın kəlmə və kəlmələrinə itlaq olunur ki, əvvəli və sonu başqalarından ayrı olur (cümlə kimi) və Quran surələrini təşkil edir. Məsələn “Ənfal” surəsinin 2-ci ayəsi buna dəlildir: “Elə ki, onlara ayələr oxunur, imanları artacaq”.

واذا تلیت علیهم ایاته زادتهم ایمانا

## “Surə” sözünün mənası

Surə sözü neçə kökə malik olub bir neçə mənaya dəlalət edir. Onlardan nəzərə yaxın gələni سوره maddəsindən olub, Quranda “ucalıq və mənzələt” mənasına işlənəndir. Bir neçə ayədən təşkil olunmuş, “Tövbə” surəsindən başqa, əvvəli “bismillah” ilə başlayan ayələrin toplusuna “surə” deyilir.

Allahın kəlamı olduğuna görə və ya oxuyanın məqamını yüksəltdiyinə görə surə “ucalıq və mənzələt” mənası verir.

## Quranın surələrə bölünməsinin səbəbi

Hər bir şeyə səbəb olduğu kimi Quranın da neçə surəyə bölünməsinin səbəbləri vardır. Biz aşağıda o səbəblərdən bəzilərini qeyd edirik. Onu da qeyd etmək lazımdır ki, bunlar bir neçə qaydalardır ki, faydadır Quranın surələrə bölünməsindən qarşıya çıxır və bu faydalar, biz aşağıda qeyd etdiyimizlə məhdudlanmayıbdır.

1. Quranda müxtəlif mövzu və hədəflərə görə Quran surələrə bölünmüşdür. Belə ki, təfsirçilərdən bəzilərinin nəzəri belədir: hər bir surə xüsusi bir hədəfi izləyir. Bu hədəfə aid olan ayələr həmin surədə toplanır. Məsələn; “Nəml”, “Yusif”, “Fil”

surələri kimi.

2. Quranı əzbərləmək, oxumaq və öyrənməyin asanlaşması: daha qısa bir şəkildə izah etmək istəsək, belə deyərik; Quranın surələrə bölünməsi onun təlimini asanlaşdırır.
3. Quranın surələrə bölünməsi onun təhrif olunmasının qarşısını alır. Belə ki, surələrə bölünməklə müəyyənləşərək qorunub saxlanılır.

## Quran surələrinin adları

Quran surələrinin çoxu bir ada malikdir. Amma bəzilərinin iki adı vardır. Hətta bəzi surələrin bir neçə adı vardır.

"Həmd" surəsi üçün iyirmidən çox ad sayıblar: "əlhəmd", "fatihətul kitab", "ümmül kitab", "fatihətul Quran", "ümmül Quran", "Quranul əzim", "əssəbə məsani", "əl vafiyə", "əlkənz", "əlnafiyə", "ələsas", "ənnur" və sairə.

Quranın surələrinə ad qoyarkən müxtəlif cəhətlər nəzərdə tutulubdur.

1. Surədə bəhs olunan mövzunu nəzərə alaraq ad qoymaq. Məsələn: "Nisa", "Tohid", "Ənbiya", "Əhzab", "Möminun", "Kafirun" surələri kimi. Bu surələrdə adı çəkilən mövzulardan çox söhbət getdiyinə görə belə adlanıblar.

2. Bəzi peyğəmbərlərin və ya şəxlərin haqqında söhbət açılan surələr də onların adları ilə adlanıb. Məsələn: “Nuh”, “Hud”, “İbarahim”, “Yunis” və s.
3. Müqəttiə hərflərinin hesabına surələrə ad qoymaq.
4. Məsələn: “Qaf” ق “Sad” ص. Bu hərflər hansı surənin əvvəlindədirsə, onun adına həmən ayəyə ad qoyulub.
5. Bəzi heyvanların barəsində və ya onlar haqqında xüsusi bir səbəbdən söhbət açılan surələri həmən heyvanların adı ilə adlandırıblar. Məsələn: “Bəqərə”, “Nəml”, “Nəhl”, “Ənkəbut”.
6. Surənin mühim bir hissəsindən ona ad qoymaq. Məsələn: “Cümə”, “Fəth”, “Hədid” və “Mütəffifin”.
7. Surədə birinci olaraq nəyə and içilibsə, o həmən surəyə ad qoyulub. Məsələn:“Əlfəcr”, “Əşşəms”, “Əzzüha” və s.

Bütün bu deyilənləri nəzərə alaraq xülasə şəklində belə demək olar ki, mühüm olan bir mövzu, yaxud çox cəlbedici olan bir şey surəni adlandırmağa əsas meyar olubdur.

Bir faktı da qeyd etmək lazımdır ki, o da bu adların şəriət tərəfindən qoyulması barədədir. Belə ki, surələrin adı şəriət tərəfindən belə qoyulub yoxsa yox? Bu barədə müxtəlif nəzərlər vardır. Biz Əllamə

Təbatəbainin (rahmətullahi ələyh) nəzərini qeyd edirik. Əllamə buyurur: Surələrin çoxunun adı Həzrət Peyğəmbərin (s) zamanında çox işlənməkdən əmələ gəlib və şəriət tərəfindən qoyulmayıbdır.

## Surələrin bölümü

Quranşünaslar bir cəhətdən Quranın surələrinin böyüklüyünə (ayələrin sayına) görə onları dörd yerə bölüb və onlara xüsusi ad veriblər:

1. "Əssəbi əttüvəl" – Quranın yeddi böyük sürəsi ki, "Bəqərə", "Ali İmran", "Maidə", "Ənam", "Əraf" və "Nisa" – dan ibarətdir. Yeddinci surəni bəziləri "Yunis", bəziləri isə "Kəhf" hesab edirlər.
2. "Əlməul" – Bu surələr uzun surələrdən nisbətən qısa olub, ayələrin sayı yüzü keçibdir. "Tövbə", "Nəhl", "Hud", "Yusif", "Kəhf", "İsra", "Ənbiya", "Taha", "Möminun", "Şüəra", "Əssaffat".
3. "Məsani" – Bu qism surələrin ayələrinin sayı yüzdən azdır. Onlar təqribən iyirmi surədir.
4. "Müfəssəl" – kiçik surələrdir ki, onları "müfəssəl" adlandırıblar.

## Quranın surələrinin, ayələrinin və kəlimələrinin sayı

Quranın surələrinin sayı 114-dür. Amma Quranın ayələrinin sayında bir qədər ixtilaf vardır. Bu ixtilaf, ayələrin azalmağı, yaxud çoxalmağında deyil. Bəlkə onların sayılma qaydasi fərqlidir. Dəqiq hesablamalara əsasən Quranın ayələrinin sayı 6236-dır.

Quranın kəlmələrinin sayına gəldikdə isə, o da nəzərə dəqiq gələn hesablamaya əsasən 77807 kəlmədən ibarətdir.

## Birinci, axırıncı ayə və surələr

Həzrət Peyğəmbərə (s) nazil olan birinci ayələr "Ələq" surəsinin əvvəlinci ayələridir. Amma Peyğəmbərə (s) nazil olan axırıncı ayələr barəsində bir qədər ixtilaf vardır.

Yəqubi deyir; Peyğəmbərə (s) nazil olan axırıncı ayə "Maidə" surəsinin üçüncü ayəsidir: "Bu gün dini kamil etdim, neməti tamamladım, islamın sizə din olmağına razı oldum".

اليوم اكملت لكم دينكم واتممت عليكم نعمتى ورضيت لكم الاسلام دينا

Yəqubi yazır; bu ayə Qədir Xum çölündə peyğəmbər (s), Əli ibni Əbutalibi (ə) imamətə nəsb edəndə nazil oldu.

"Əttəmhid" kitabının sahibi Yəqubinin sözünü təsdiqləyərək deyir: Bu ayə dinin kamil olduğunu bildirir. Ona görə də axırıncı olaraq nazil olması həqiqətə uyğundur.

Peyğəmbər (s)-in ömrünün sonları yaxınlaşırdı. Qədir Xum çölündə öz canişinini təyin edəndən sonra bu ayə nazil olub, Peyğəmbərə (s) bu münasibətlə dinin kamil olduğunu elan etdi.

Əvvəlinci və axırıncı surələrə gəldikdə isə İmam Sadiq (ə) buyurur: Kamil surətdə nazil olan birinci surə "Fatihə", axırıncı isə "Nəsr" surəsidir.

## Məkkədə və Mədinədə nazil olan ayələr

Quranın surələri bir cəhətdən iki yerə bölünür; Məkkədə nazil olan surələr və Mədinədə nazil olan surələr. Belə bölümün özünün də faydaları vardır. Hicrətdən qabaq nazil olan ayələrə "Məkki", hicrətdən sonra nazil olanlara isə "Mədəni" ayələr deyilir. Ayələrin bu cürə bölümünün onların təvil və təfsirində təsiri vardır. Məsələn, "Məkki" ayələrdə "zəkat" sözü işlədilir. Bu sözün vacib zəkat olub olmamasını bilmək, onun harada nazil olduğunu bilməklə

müəyyənləşə bilər. Vacib zəkat Mədinədə insanlara hökm olunubdur. Deməli Məkkədə nazil olan ayələrdəki "zəkat" müstəhəb, Mədinədə nazil olan ayələrdəki zəkat isə vacibi zəkat mənasındadır.

Məkkədə nazil olan surələrin özünəməxsus xüsusiyyətləri vardır. Məsələn: Üsulidinə dəvət etmək, ali əxlaqa çağırmaq, behişt, cəhənnəm və qiyamət barəsində söz açmaq, müşriklərlə mücadilə, ayələrdə andın çoxluğu, peyğəmbərlərin qissələri, surələrin kiçikliyi.

Mədinədə nazil olan surələrin də özlərinə məxsus xüsusiyyətləri vardır: əhli-kitabla mücadilə, münafiqlərlə üzləşmə, cihad və onun hökmünü yad etmək, cəza hökmləri, vacibat, hüquq, irs, siyasi və iqtisadi qanunları şərh etmək, surələrin və ayələrin uzunluğu.

Quranın surələrinin 86-sı Məkkədə, 26-sı isə Mədinədə nazil olubdur.

## *8-ci Dərsin Sualları*

1) ***Quranda neçə surə və neçə ayə var və surə ilə ayənin fərqi nədir?***
2) ***Quran nə üçün surələrə bölünüb və surələrin adları qoyularkən hansı cəhətlər nəzərdə tutulubdur?***
3) ***Birinci və sonuncu nazil olan ayələr hansılardır?***
4) ***Kamil surətdə nazil olan birinci və sonuncu surələr hansılardır?***
5) ***Məkki və Mədəni ayələr nə deməkdir?***

## 9-cu DƏRS

*I. Quranın yazılması*
*II. Quranın yazılma mərhələsi*
*III. Quranı nəyin üzərinə yazırdılar?*
*IV. Quranın yazılma forması*

# Quranın yazılması

Quranın bəhslərindən biri də onun yazılması barədədir. Hər bir müsəlman onun dini kitabının tarixi ilə tanış olmaq istəyir.

İlkin mərhələdə Peyğəmbər (s) və onun yaxın dostları Quranı əzbərləməklə qoruyub saxlayırdılar. Ərəblərin hafizəsi tarixdə çox məşhur olubdur. Onlar cəhalət dövründə çoxlu məhrumiyyətlərlə üzləşsələr də hafizə cəhətdən çox inkişaf ediblər. Belə ki, uzun şerlər, hətta divanları əzbər edərək tarixdə saxlayıblar. Deyilənlərə görə cox vaxt ərəblər bir şeri bir dəfə eşitməklə əzbərləyirmişlər.

Allah-Təalanın gözəl və dilə yatımlı kəlamı olan Qurani-Kərim nazil olanda ərəblər onu çox böyük bir həvəslə əzbərləməyə başladılar. Quranın öz cazibəsi, onların xüsusi istedadı və ilahi bir məsuliyyət toplaşaraq Quranın zehnlərdə yaşamasını təmin etdi. Onu da əlavə etməyi lazım bilirik ki,

Quranın qorunub saxlanmasına Allah-Təala özü zamin olubdur. Peyğəmbər (s) özü də möminləri Quran əzbərləməyə çox təşviq edərdi. Bu da istedadların ilahi tərəfindən daha möhkəmlənməsinə səbəb oldu və Quran əvvəlki mərhələlərdə bu cür yaşadı.

## Quranın yazılma mərhələsi

Məkkədə yazı yazmağı bacaranlar 17 nəfər idilər. Quranın da yazılmağı çox zəruri idi. Çünki onu zehinlərdə qoruyub saxlamaq çətin idi. Ona görə də Həzrət Peyğəmbər (s) yazmağı bacaranları toplayıb Quranı yazdırmağa başladı. Bu dəstənin adına "kuttabu vəhy" deyirdilər. Vəhyi yazanların sayının tarixdə 45 nəfərə qədər olduğunu qeyd ediblər. Bunlardan bəzilərinin üzərində ixtilaflar vardır. Çünki Qurandan əlavə əhdnamələr, müqavilələr, Peyğəmbərin (s) məktubları olurdu. Onları da yazırdılar. Amma bir neçə nəfərin Quranı yazmağı ixtilafsız tarixə düşübdür. Onlar ibarətdirlər: Həzrət Əli ibni Əbutalib (ə), Məaz ibni Cəbəl, Übey ibni Kəb, Zeyd ibni Sabit və Abdullah ibni Məsud.

## Quranı nəyin üzərinə yazırdılar?

İxtilafsız olaraq Quranın aşağıda qeyd edəcəyimiz vasitələrdə yazılması tarixdə öz əksini tapıbdır:

1. Usub – xurma çubuqları.
2. Lixaf – kiçik və nazik daşlar.
3. Riqa – kağız parçaları.
4. Ədyəm – dabbağ olunmuş heyvan dərisi.
5. Əktaf – dəvə və qoyun sümükləri
6. Əktab - dəvənin belinə minmək üçün qoyulan taxta
7. Əzla – heyvanın qabırğaları
8. Hərir – ipək parça
9. Şizaz – bir növ ağac
10. Tirtas – kağız

Doktor Ramiyar yazır: ərəblər kağızı qədimdən tanıyırdılar. O zaman kağız Hindistanda düzəlirdi. Oradan Yəmənə göndərilirdi. Yəməndən isə Ərəbistan vasitəsilə Şama və Ruma göndərilirdi.

## Quranın yazılma forması

Vəhyi yazanlar Həzrət Peyğəmbərin (s) göstərişi ilə, ayələr nazil olduqca bir-birinin ardınca yazırdılar. Hər vaxt ki, ”bismillahirrahmənirrahim” nazil olurdu, bununla bir surənin qurtarıb o birisinin

başlanması bildirilirdi. Bu barədə İmam Sadiq (ə)-dan hədis vardır ki, buyurur: "Bir surənin əvvəlində "bismillah"ın nazil olması, ondan qabaqkı surənin qurtarmasını bildirirdi".

كان يعرف انقضاء سورة بنزول بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّ الله الرحمن الرحيم ابتداء لاخرى

Bəzi hallarda Peyğəmbərin (s) seçimi ilə, ya Cəbrailin göstərişi ilə, nazil olmuş ayələri başqa surələrin ayələrinin arasına yerləşdiriblər. Quranın ayələrinin tənzimi və tərtibi əksər surələrdə Peyğəmbərin (s) əmri ilə olubdur. Bəzi surələrdə isə səhabənin rəyi və ictihadı ilə əmələ gəlibdir.

### *9-cu Dərsin Sualları*

1) ***Quran nə zamandan yazı şəklinə salınmağa başlayıb və bu iş kimin göstərişi ilə olub?***
2) ***Quranı yazanlara nə deyilir və onlar kimlər idi? Bir neçəsinin adlarını çəkin.***
3) ***Quranı kağızdan başqa nələrin üzərinə yazırdılar?***
4) ***Quranın ayələrinin tənzimi və tərtibi hansı formada həyata keçirilib?***

## 10-cu DƏRS

I. ***Quran hafizləri***
II. ***Quranın bir yerə toplanması***
III. ***Mövla İmam Əli (ə)-ın topladığı Quranın xüsusiyyətləri***
IV. ***Birinci və üçüncü xəlifənin dövründə Quranla əlaqədar görülən işlər***
V. ***Qiraətin vücuda gəlmə mərhələləri***

## Quran hafizləri

Səhabələr arasında Quranı əzbər bilən bir çox şəxslər var idi. Həmçinin onların arasında Peyğəmbər (s)-in həyat yoldaşlarından da var idi. Quranı əzbər bilənlərin adlarını bir-bir qeyd etmək çox uzun çəkdiyinə görə onların ancaq məşhurlarının adlarını yazırıq: Əli ibni Əbutalib (ə), Əbdullah ibni Məsud, Ubey ibni Kəb, Zeyd ibni Sabit, Osman, Məaz ibni Cəbəl, Əbu Ərda, Əbu Əyyub, Səd ibni Ubeyd, Əbu Zeyd.

## Quranın bir yerə toplanması

Bəzi səhabələr Peyğəmbər (s)-in zamanında özləri üçün Quranı toplamışdılar. Həzrət Əli (ə) Peyğəmbər (s)-dən sonra birinci şəxsiyyət olduğuna görə Həzrət Peyğəmbər (s) Quranı kitab halına salmağı ona tapşırdı.

Əbubəkr Həzrət İmam Sadiq (ə)-dan nəql edir ki, Peyğəmbər (s) Əliyə (ə) buyurdu: "Ey Əli! Bu Quran mənim yatağımın yanında, kağız və ipək parçalarının üzərindədir. Onu bir yerə toplayın, yəhudilər Tövratı aradan aparan kimi onu zay etməyin.

يا على القران خلف فراشى فى المصحف و القراطيس فخذوه و اجمعوه ولا يضيعوه كما ضيعت اليهود التوراة

Beləliklə Quran Həzrət Peyğəmbərin (s) göstərişi ilə, elə özü həyatda ikən kitab halına gətirildi. Həzrət İmam Əli (ə) Peyğəmbər (s)-in rehlətindən 6 ay sonra Quranı təfsir və maarifi ilə bir yerdə yenidən cəm edib bir dəvənin üzərinə qoyaraq camaata göstərdi.

Muhəmməd ibni Seyreyn Əkrəmədən nəql edir: Peyğəmbər (s) vəfat edəndən sonra camaat Əbu Bəkr ilə biət etdilər. İmam Əli (ə) Quranı toplamağa başladı və bu işi altı aya tamam etdi.

Muhəmməd deyir: Əkrəmədən soruşdum: başqaları da Quranı toplamağa məşğul idilər? O, dedi: Əgər ins və cin istəsəydilər də Əli kimi edə bilməzdilər.

# Mövla İmam Əli (ə)-ın tərtib etdiyi Quranın xüsusiyyətləri

Mövla İmam Əli (ə) Quranın təhrif olunmamağı üçün onu toplamağa başladı və bu işi axıra qədər, kamil surətdə tamam etdi. Onun tərtib etdiyi Quranın özünəməxsus xüsusiyyətləri var idi. O, Quranı gördüyümüz formanı saxlamaqla yanaşı əlavə işlər də gördü:

1. Quranı nazil olduğu tərtiblə topladı.
2. Bu Quran, ayələrin nuzul səbəblərini, nazil olma məkanını və kimlərin barəsində nazil olmağını özündə ehtiva etmişdi.

Mövla İmam Əli (ə) topladığı bu Quran irs olaraq imamların birindən digərinə keçərək axırıncı imamın yanında olduğuna dair dəlillər vardır. Bir rəvayətdə nəql olunur ki, Təlhə Əli (ə)-dan bu Quranın barəsində soruşanda Əli (ə) buyurdu: "Mən bu Quranı Peyğəmbər (s)-in əmri ilə toplamışam, onun əmri ilə də oğlum İmam Həsən (ə)-a təhvil verəcəyəm, çünki o, mənim canişinimdir. O da öz növbəsində öz canişininə və bu cürə davam edərək sonuncu imamın yanında qalacaqdır."

# Birinci və üçüncü xəlifənin dövründə Quranla əlaqədar görülən işlər

Birinci xəlifənin dövrundə də onun göstərişi ilə əldə olan Quranın nüsxələri artırıldı. Yəmayə müharibəsində 1700 nəfərə yaxın müsəlman şəhid oldu. Onlardan ən azı 450 nəfər qare idilər. Bunun kimi başqa işlər səbəb oldu ki, birinci xəlifə Quranı çoxaltmaq fikrinə düşdü. Qarelərin aradan getməyi ilə Quran barəsində ixtilafın yaranmasından ehtiyyat etdi.

Təqribən 13 ildən sonra üçüncü xəlifə Osman da Quranı çoxaltmaq fikrinə düşdü. Odur ki, bir heyət təşkil edib bu işi onlara tapşırdı. Çox ehtimala əsasən Osman 5 ədəd Quran düzəltdirdi və onları Kufə, Şam, Bəsrə və Məkkə şəhərlərinə göndərdi. Birini isə islamın mərkəzi olan Mədinə şəhərində saxlatdırdı. Buna səbəb hamının o Qurana baxıb oxumağı və Quranda ixtilafın vücuda gəlməməsi idi. Osman hər bir Quranla bir qare göndərdi ki, onların vasitəsi ilə Quran müsəlmanlara oxunsun. Osmanın tərtib etdiyi Quran əvvəlki Quranlar kimi nöqtəsiz və erabsız idi. Indi onlardan heç bir əsər-əlamət qalmayıbdır.

Xəlifələrin tərəfindən Quranın artırılmasına nisbət imamların mövqeyi müsbət idi və müxalifət etməyiblər.

Dördüncü əsrin axırlarına qədər müsəlmanlar Quranı "Kufi" xətti ilə yazırdılar. Ondan sonra Quran "Nəsx" xətti ilə yazılmağa başladı. Qurani-Kərim daha artıq qorunub saxlanmaq və düzgün oxunmaq üçün onu nöqtələyib erabla yazdılar. İlk dəfə bu iş Əli (ə)-ın şagirdi Əbu Əsvəd Duvelinin vasitəsi ilə əmələ gəldi.

## Qiraətin vücuda gəlmə mərhələləri

Quranın oxunma formalarını yeddi mərhələyə bölmək olar:

1. Peyğəmbər (s) bəzi səhabələrə Quranı oxumaq yolunu təlim etdi. Bəzi səhabələr də bu barədə Həzrət Peyğəmbər (s)-ə təkliflər vermişdilər. Bu mərhələnin əfradı aşağıdakılardan ibarətdir: Əli ibni Əbutalib (ə), Ubey ibni Kəb, Əbdullah ibni Kəb, Əbdullah ibni Məsud, Zeyd ibni Sabit, Osman ibni Əffan, Əbu Musa Əşəri və Əbul Dərda.
2. Birinci dəstənin təlimi vasitəsi ilə ikinci dəstə qarelər əmələ gəldi və qiraətlər bəzi şəxslərə nisbət verildi.
3. Osmanın vasitəsi ilə Quranın vahid qəraəti üçün qarelər və quranların tərtib edilməsi.
4. Bəzi ixtilafların nəticəsində təzə nəsil qare və hafizlərin meydana gəlməsi.

**5.** Qiraətin həddindən artıq inkişaf edib, o cümlədən "qurrae səb"-in vücuda gəlməsi.
**6.** Qiraət üçüncü əsrdə şifahi formadan yazılı formaya çevirilməyə başlandı. Bu iş bir neçə nəfərin vasitəsi ilə oldu. Onlar Qasim ibni Səlam, Əbu Hatəm Səcistani, Əbu Cəfər Təbəri və s. idilər.
**7.** Dördüncü əsrin əvvəllərində İbni Mücahidin Vasitəsi ilə qiraət "yeddi qiraətə" hasarlandı və bundan sonrakı yazılar da bu səmtə yönəldi.

## *10-cu Dərsin Sualları*

1) ***Həzrət Peyğəmbər (s)-in zamanında yaşayan Quran hafizlərindən bir neçəsini sadalayın.***
2) ***Sonuncu səmavi kitab olan Quranın toplanaraq bir kitab halına salınması kimi məsuliyyətli bir işi Həzrət Peyğəmbər (s) öz zamanındamı həyata keçirdi, ya özündən sonraya saxlayaraq ümmətin ixtiyarına qoydu? Cavabınızı əsaslandırmaq üçün dəlil olaraq ayə və ya hədis gətirin.***
3) ***Həzrət İmam Əli (ə)-ın, Həzrət Peyğəmbər (s)-in rehlətindən sonra tərtib etdiyi Quranın əlimizdə olan Quranla ümumi və fərqli cəhətləri nə idi?***
4) ***Birinci və üçüncü xəlifənin dövründə Quran ilə əlaqədar hansı işlər görülmüşdü?***

# 11-ci DƏRS

*I. "Ecaz"-ın lüğəvi mənası*
*II. "Ecaz"-ın istilahi mənası*
*III. Ən yaxşı möcüzə*
*IV. Fəsahət və bəlağət*
*V. Quranda ixtilafın olmaması*
*VI. Maarif cəhətindən möcüzə olması*
*VII. Qanun qoymaqda Quranın möcüzəsi*
*VIII. Qeybi xəbərlər vermək cəhətindən Quranın möcüzə olması*
*IX. Elmi məsələləri dəqiq surətdə açıqlaması cəhətdən Quranın möcüzə olması*

Məqsədimiz Qurana bir neçə cəhətdən diqqət etmək olduöuna görə söhbətimizin bu hissəsində Qurani-Kərimin ecazına işarə etmək istədrik. Bu barədə xülasə şəkildə bəhs etmək yaxşı olardı. Ona görə ki, həm bu barədə bir qədər məlumat toplarıq, həm də Quranın çox dərin bir ilahi kitab olduğunu bir az da dəqiqləşdirərik. Sonra da Quranın tərcümə və təfsirində nə isə etmək istəsək çox ehtiyyatlı olaraq öz şəxsi fikirlərimizə etimad etməyib, lazım olan yerlərə müraciət edərək özümüzü bu çətin bəhsdə xətadan qoruyarıq. İndi görək Quranın möcüzə olmağı nə dərəcədədir. Ona görə də əvvəlcə ecaz kəlməsi barəsində bir qədər təhqiq aparaq.

## “Ecaz”-ın lüğəvi mənası

Lüğətdə “ecaz” kəlməsi üçün bir neçə məna zikr olunubdur:

1. “Əlfat” – o şey ondan fövt oldu.
2. “Vicdanul əcz” – onu aciz tapdı.
3. “Ehdasul əcz” – onu aciz etdi.

Rağib İsfəhani “Müfrədat” kitabında yazır: “Əcz” maddəsi bir şeydən geri qalmaq mənasındadır. Ürfdə isə bir işi əmələ gətirməkdən aciz olmağa deyirlər.

## “Ecaz”-ın istilahi mənası

İstilahda ecaz, peyğəmbərlik iddiası edən bir şəxsin əmələ gətirdiyi işə deyərlər ki, başqaları o işi etməkdən acizdirlər. Bu işə möcüzə deyərlər və bu, peyğəmbərlik iddiası edən şəxsin peyğəmbərliyinə şahiddir.

## Ən yaxşı möcüzə

Ən yaxşı möcüzə odur ki, öz zamanında olan məşhur sənətə və peşəyə oxşar olsun. Ona görə o sənətə arif və alim olanlar hamıdan yaxşı bilirlər ki,

SonUmidTv

peyğəmbərliyə şahid gətirilən bu iş adi peşələrdən fərqlidir. Buna əsasən də alimlər peyğəmbərlərin möcüzəsini təsdiq etməkdə başqalarından irəlidədirlər. Necə ki, Həzrət Musa (ə)-ın möcüzəsinə ilk dəfə iman gətirənlər sahirlər (sehr edənlər) oldular.

Allah-Təala Həzrət Musa (ə)-a sehrin müqabilində əsa, Həzrət İsa (ə)-a müalicəsi olmayan xəstəliklərin müqabilində müalicə yolu, axırıncı peyğəmbəri olan Həzrət Mudəmməd (s)-ə isə ərəblərin şerdə və ədəbiyyatda şox inkişaf etdiyi bir zamanda gözəl fəsahət və bəlağətə malik olan Quranı əta etdi. Bunların da möcüzə olduğunu öz dövrlərinin bu işdə ustad olanları birinci başa düşdülər.

Muğeyrət ibni Şobə cəhalət dövründə Ərəbistan yarımadasında böyük bir ədib, fəsahət və bəlağətli şer yazan bir şəxs idi. Müşriklər onu Peyğəmbər (s)-lə söhbətə göndərdilər. O, qayıdandan sonra dedi: o sözlər bəşər sözü deyil. Müşriklər dedilər: deyək ki, Muhəmməd (s) dəlidir.

Muğeyrət cavabında dedi: siz bilmirsiz o yüksəklikdə kəlam sahibi olan bir şəxsə cünun adı yapışdırmaq mümkün deyil? Deyin ki, sahirdir, bəlkə bu yol ilə insanları ona inanmağa qoymadıq.

Bəli, belə olub. Bütün peyğəmbərlər öz zamanlarında inkişaf edən bir peşəyə uyğun möcüzə gətiriblər. O zamanın da başbilənləri onun möcüzə,

SonUmidTv

gətirənin isə peyğəmbər olduğunu hamıdan əvvəl biliblər. Amma bilmək ayrı işdir, inanıb əqidə bağlamaq ayrı iş. Onlar tanıyırdılar, bilirdilər, amma, o həqiqəti aşkar etmirdilər. Ona görə ki, şəxsi mənafeləri təhlükəyə düşürdü. Elə müasir dövrdəki kimi. Çoxları həqiqəti başa düşürlər, amma, nə isə bu həqiqətin qarşısında onların bəndəçilik boyunlarının əyilməsinə mane olur. Bu maneə cəhalətdirmi? Xeyr. Cahillər haqqı tanıyanlar cərgəsinə hələ daxil olmayıblar. Hansı səbəb? Bəlkə inadkarlıq? Bəlkə dünyanın çirkin olan quru adı və bir tikə acı yeməyi? Bu acı tikələrin hesabına insanlar çoxlu şirin yeməklərini əldən veriblər. Bir quru ada xatir böyük üxrəvi adlarını və məqamlarını itiriblər. İmam Hüseyn (ə) bir nəfərə nəsihət edərkən belə buyurdu: "Sən 80 ilin günahını toplamısan, çox səhvlər edibsən. Bu günahları ancaq Allah yolunda şəhid olmaq təmizləyər".

O adam isə cavabında dedi: "İstəyirsən yaxşı atları verim sənə".

İmam təəssüf edərək geri qayıtdı. Həmən adam da başa düşmədi ki, 80 il idi ki, o, günah edirdi. Onun günahının təmizlənməsi lazım idi, atın yox. O şəxs qalan ömrünü təəssüflə keçirdi. Həmişə o fürsəti əldən verdiyi üçün peşimançılıq çəkərdi. Rahatlıq olmadı onun qalan ömründə.

SonUmidTv

Bəli, cəhalət, inadkarlıq, dünyapərəstlik və başqasına qulluq etmək – hamısı insanı haqdan döndərən səbəblərdir.

Həzrət Peyğəmbər (s) buyurdu: "Bədbəxt adam axirətini dünyasına satandır. Ondan bədbəxti isə öz axirətini başqasının dünyası üçün əldən verəndir".

Başqasının əmrlərini icra edib, onun dünyasına xidmət edən insanlar çox uduzmuşlardır. Insan fitrətində və quruluşunda başqasının dünyasına xidmət etmək yoxdur. Bunlar heyvani qərizələrin insani hisslərə üstün gəlməsindən vücuda gəlir. İnsan rəzilləşir, insanlığını itirir, sonra həqiqəti tanıyıb onu ayaqları altına atır. Bilir ki, onu qiymətləndirən, ona "əhsəni təqvim" adını verən haqqa boyun qoymağıdır. Bilir ki, bu haqdan uzaqlaşması onun pisliyinə gətirib çıxardır. Bununla belə haqqı atıb, batilin ardınca gedir.

Bəni Üməyyə sarayında xidmət edən bir alimə İmam Səccad (ə) belə buyurdu: "Bu işinlə zalimlərə nə qədər xeyir verib, özünün nə qədər ziyana düşdüyünü bilirsənmi?"

Yuxarıda dediyimiz səbəblərin hamısı pisdir. Çünki hamısı insanı haqdan uzaqlaşdırır. Amma bunların hamısından pisi, başqasının göstərişlərini icra etmək, axirəti başqasının dünyasına satmaqdır. Deyirlər, bir gün şahın naharına badımcandan yemək

SonUmidTv

bişirirlər. Şah yeyir, xoşu gəlir və aşpaza deyir: "Bu badımcan nə yaxşı yemək imiş". Bunu vəzir də təsdiqləyir. Bunu eşidən aşpaz sabah da həmən xörəkdən bişirdi. Əsəbi olan padşah "Məmləkətdə yemək bişirməyə bir şey yoxdur?" deyə badımcanı pisləməyə başladı. Vəzir də öz növbəsində aşpazı danladı. Şah üzünü vəzirə tutaraq, "Ay vəzir, səndən də baş açmaq olmur. Mən tərifləyəndə tərifləyirsən, pisləyəndə isə pisləyirsən" deyir.

Vəzir özünə məxsus bir tərzdə, "Şah sağ olsun, mən sənin vəzirinəm, badımcanın yox" deyir.

Bəli şahın vəzirləri, özlərini başqalarına qul edənlər bu gün də vardırlar. Bu gün Peyğəmbər (s)-ə sehrbaz deyə bilməyənlər, Quranın əldə düzəltmə olduğunu iddia edə bilməyənlər başqa formada haqq ilə düşmənçilik edirlər. Ayələrin mənasını dəyişdirib həqiqət adı ilə, özlərini isə həqiqət tərəfdarları kimi qələmə verirlər.

Bu barədə genişliyi ilə sonradan bəhs olunacaq. Qayıdaq söhbətimizin əvvəlinə. Görək Quran hansı səbəblərə görə möcüzə hesab olunur.

## Fəsahət və bəlağət

Fəsahət və bəlağət gözəl kəlmələrlə yetirici mənalar ifadə etməyə deyərlər. Belə ki, kəlmələr dilə

yatıcı olsun, eyni halda mənalar zehinlərə tez çatsın. Həzrət Peyğəmbər (s)-in besət dövründə ərəblər ədəbiyyat və şer sahəsində çox yüksək bir mərhələyə çatmışdılar ki, yer üzündə heç zaman o pilləyə qalxan ədəbiyyat olmamışdır. Belə bir zamanda Quran nazil olur. Fəsahət və bəlağəti o qədər yüksək olur ki, bütün ərəbləri və şairləri kölgədə qoyaraq onların şer və nəsrlərinin üstünə pərdə çəkir.

Tarixdə çoxlu hekayələr olubdur. Böyuk ədiblərə Quranın ayələrindən oxuyanda onların bədəni lərzəyə düşübdür. Quranın ilahi bir möcüzə olduğunu etiraf ediblər.

## Quranda ixtilafın olmaması

Bilirik ki, Qurani-Kərim 23 ilin müddətində tədriclə nazil olubdur. Müxtəlif hadisələrdə, cürbəcür münasibətlərdə Qurani-Kərim çoxlu məsələləri əhatə edibdir. İncəsənət, ictimai, iqtisadi, siyasi, etiqadi, əxlaqi məsələlər Quranda cilvələnibdir.

Quranda keçmişlərin qissələri nəql olunubdur. Əqli dəlillərlə məsələlər sübuta yetirilibdir. Bu qədər məsələlərin içərisində kiçik də olsa heç bir ixtilaf yoxdur.

Qurani-Kərim “Nisa” surəsinin 82-ci ayəsində belə buyurur: “Aya Quranda (Quran və ya Quran

dediyi məsələlər barədə - red.) fikirləşmirlər, əgər Allah tərəfindən gəlməsəydi, onda çoxlu ixtilaflar tapardılar".

افلا يتدبرون القران ولو كان من عندى غير الله لوجدوا فيه اختلافا كثيرا

Bəli, dərs oxumayan, məktəb görməyən bir nəfərin vasitəsilə belə bir kitabın ərsəyə gəlməsi həqiqətən böyük möcüzədir.

## Maarif cəhətindən möcüzə olması

İslam maarifi və etiqadı salim əql və qüvvətli dəlillər ilə uyğundur. Allahı tanıması, tovhid və başqa məsələləri çox gözəl bir surətdə bəyan edir və bunu indiyə qədər qoruyub saxlayır. Heç bir təhrif əli ona yetişə bilməyib. Başqa dini kitablar təhrif olunaraq öz peyğəmbərlərinə nalayiq işlər nisbət veriblər. Amma Quran maarifi bəyan edəndə bu məsələləri çox gözəl açaraq peyğəmbərimizə böyük əxlaq və digər fəzilətlər nisbətini vermişdir.

## Qanun qoymaqda Quranın möcüzəsi

Quranın bu qismətdə möcüzə olmasında heç bir şəkk yoxdur. Əxlaqın süqut edib aradan getdiyi, ictimai rəsm və ədəblərin söndüyü, qarət və

quldurluğun hesabsız bir dərəcəyə çatdığı bir zamanda, qızların diri halda basdırıldığı, xəyanət, fəsad və ədalətsizliyin aləmi əhatə etdiyi bir vaxtda Quran nazil olur, həddindən artıq dərəcədə mütərəqqi olan bir qanun gətirir. İnsani fəzilətlər bayrağını qaldırır. Camaatı qardaşlığa, sədaqətə, əmanətdarlığa, vəhdət və insaniyyətə dəvət edir. Insanları cəhalətdən elmə, zülmətdən nura çağırır. Bu gün də şərq və qərb islam mədəniyyətinin kölgəsində qalıbdır. Ümumiyyətlə Quranda olan qanunların cəmi, Quranın möcüzə olmasına bir dəlildir.

## Qeybi xəbərlər vermək cəhətindən Quranın möcüzə olması

Qurani-Kərimdə keçmişlərin xəbəri xilqətin əvvəlindən besətə qədər vardır. Habelə gələcəkdən də çoxlu xəbərlər verilmişdir ki, bunların hər ikisi qeybi xəbərlərdir. Gələcəkdən bir xəbər vermək və o xəbərin də düzgün çıxması özü də bir möcüzədir.

Bu xəbərlərdən bəzilərinə işarə edək:

1. Quran, keşmiş peyğəmbərlər və onların ümmətindən söhbət açaraq bu xəbəri qeybi bir xəbər adlandırır. Həqiqətdə bunlardan tarixdə heç kəsin xəbəri olmayıb.

"Hud" surəsinin 49 – cü ayəsində belə

buyurulur: (Həzrət Nuhun haqqında danışandan sonra) "Dediyimiz qeybi xəbərlərdir, sənə vəhy etdik, nə sən, nə də sənin qövmün bunlardan xəbərdar deyildiz".

...تلك من انباء الغيب نوحيها اليك ما كنت تعلمها انت و لا قومك من قبل هذا

2. Qurani-Kərim gələcəkdə baş verəcək hadisələrdən xəbər veribdir ki, onların hamısı xəbər verildiyi kimi baş veribdir. Məsələn:

غلبت الروم  فی ادنی الارض و هم من بعد غلبهم سیغلبون

"Rumlular məğlub oldu, amma yaxın vaxtda onlar qələbə çalacaqlar". Eyni ilə Quran deyən kimi oldu. Bunun kimi çoxlu ayələr keçmişdən xəbər verib ki, heç kəsin ondan xəbəri yox idi. Gələcəkdən də xəbər veribdir, onların, Quran dediyi kimi baş verməsinə minlərlə insanlar şahid olublar. Bu da Quranın möcüzə olmasına dəlalət edir.

## Elmi məsələləri dəqiq surətdə açıqlaması cəhətdən Quranın möcüzə olması

Qurani-Kərim o zamanda elə dəqiq elmi məsələlərə işarə edibdir ki, o vaxt insanların dərk etməsi çətin olub. Hətta bəzi hallarda onların əqidəsi

ilə böyük ziddiyyət təşkil edibdir. Buna misal olaraq: "Biz küləyi bitkilərin tozlanması üçün göndərmişik".

Bu gün elm subut etmişdir ki, bəzi bitkilər küləyin vasitəsi ilə tozlanır. Amma Quran bunu min dörd yüz il bundan qabaq xəbər veribdir.

Bundan əlavə yuxarıda söhbət açdığımız Rum müharibəsi barədə Allah-Təala bu müharibənin yerin ən alçaq hissəsində olduğunu bildirir. Bu gün alimlər sübut edirlər ki, o müharibənin baş verdiyi məntəqə dəniz səviyyəsindən neçə yüz metr alçaqdadır.

Bunun kimi çoxlu elmi məsələlər vardır ki, o zaman Quranın vasitəsi ilə izah olunmağı bu kitabın möcüzə olmasına dəlalət edir.

## *11-ci Dərsin Sualları*

1) ***"Ecaz" və ya "Möcüzə" nə deməkdir və Allah Öz peyğəmbərlərinə nə üçün möcüzə göstərmək qabiliyyəti vermişdir?***
2) ***Nə üçün bütün peyğəmbərlər öz zamanlarında inkişaf edən bir peşəyə uyğun möcüzə gətiriblər?***
3) ***Yaradılmışların Əşrəfi Həzrət Muhəmməd (s)-ə verilən möcüzə nə üçün bütün peyğəmbərlərə verilən möcüzələrdən üstün sayılır?***
4) ***Tarix boyu bəzi insanların əqlən dərk etdikləri halda peyğəmbərlərin buyuruqlarını qəbul***

***etmələrinə nə mane olub?***

5) ***Quranda ixtilaf (ziddiyyət) varmı?***
6) ***Allahı və Həzrət Peyğəmbər (s)-i tanıma cəhətindən Quran digər dinlərin kitablarından nə cür fərqlənir?***
7) ***Qanun qoymaq cəhətindən Quranın möcüzə olmasını necə başa düşürsüz? Quranın dünyaya bəxş etdiyi ən mütərəqqi qanunlara nümunə deyin və fikrinizi əqli və nəqli (ayə, hədis və ya rəvayət) yollarla əsaslandırın.***
8) ***Quranda keçmişə və gələcəyə aid qeybi xəbərləri özündə əks etdirən ayələrdən bir neçəsini misal gətirin.***
9) ***Quranın bəyan etdiyi həqiqətlərin elmi nailiyyətləri hər əsrdə qabaqlamasına dair bir neçə nümunə gətirin.***

# 12-ci DƏRS

## *I. Quranın təhrifdən qorunması*

### *1. Mənəvi təhrif*
### *2. Ləfzi təhrif*

## Quranın təhrifdən qorunması

Yuxarıdaki bəhsdə Quranın ilahi bir kitab olaraq, möcüzə olub başqalarının onun kimi kitabın bir miqdarını hətta gətirməyə qüdrətlərinin olmadığını bildik. Bu, Quran üçün böyük bir imtiyaz və onun əlçatmaz bir yüksəklikdə olmasını sübut edir.

Quran elə bir kitabdır ki, onun barəsində nə qədər təhqiqlər olunsa yeni mətləblər meydana çıxır. Quranın ilahi bir möcüzə olduğu bir daha yəqinləşir.

Quran başqa bir cəhətdən də böyük bir möcüzədir. O da Qurani-Kərimin 1400 ildə təhrif olunmamağıdır. Biz bilirik ki, başqa asimani kitablar həmən dinlərin öz insanları tərəfindən təhrif olunub, bəzi şəxslərin mənafeyinə uyğunlaşdırılmışdır. Özlərini peyğəmbərələrdən sonra onun davamçıları elan eləyənlər hətta asimani kitablarını da öz mənafelərinə uyğun döndərməyə cəsarət ediblər. Biz burada məsələnin xırdalıqlarına varmaq istəmirik, amma onu da bilirik ki, Həzrət Musa (ə)-ın, ya Həzrət

SonUmidTv

İsa (ə)-ın yerinə layiq olmaq iddiasını edənlər, o həzrətlər kimi edə bilmədiklərinə görə, onların gətirdiyi qanunlara düzgün əməl etmədikləri üçün məcbur olub ilahi kitabları öz həvəslərinə uyğun təhrif etdilər.

Amma, Qurani-Kərim qiyamətə qədər ümumbəşəri bir qanun, cahanşumul bir mədəniyyət, bəşərə nicat verə biləcək əxlaqi mövzulara və başqa minlərlə üstünlüyə malik olan bir kitab olduğuna və ilahi kitablar silsiləsinin ən kamil və sonuncusu olduğuna görə onu qoruyub saxlamağı Allah-Təala öz öhdəsinə götürmüşdür. "Biz Quranı nazil etmişik, biz də onu qoruyacağıq" – buyurmuşdur Uca Tanrı.

Əvvəlcə təhrif və onun qismləri barədə bir neçə kəlmə danışaq.

Qurani-Məcidin təhrifi barəsində bəhs iki cəhətdən təhqiq olunur:

1. Mənəvi təhrif
2. Ləfzi təhrif

Ləfzi təhrif özü üç surətdədir: 1. artıqlıq, 2. əskiklik, 3. tərtib

## 1. Mənəvi təhrif

Qurani-Kərimin mənəvi cəhətdən təhrif olunmamasında şübhə yoxdur. Belə ki, tarixdə çox

görünübdür, bəziləri öz rəy və nəzərlərinə uyğun Quranın ayələrini təfsir ediblər. (Elə bu günkü kimi). Bu məqsədə Qurani-Kərimin "Ali İmran" surəsinin 7 – ci ayəsi də dəlalət edir: "Fitnə salmaqdan ötəri qəlbləri xəstə olanlar Quranın mütəşabeh ayələrinin ardınca gedirlər (Yəni onu öz rəyləri ilə təfsir edirlər)".

Quranın "mütəşabeh" ayələri mənası zahirdən məlum olmayan ayələrdir. Bəziləri də bu ayələri fitnə salmaqdan ötəri öz rəylərinə uyğun təfsir edirlər. Bu da həmin mənəvi təhrif deməkdir.

## 2. Ləfzi təhrif

Amma ləfzi təhrif, bu cürə ki, Qurana bir hərf artıralar, ya əksildələr, bütün müsəlman firqələrinin ittifaqı ilə qəbul olunur ki, belə bir şey olmayıb. Əvvəlcədən müsəlmanlar Quranı əzbərləməyə, sonralar yazmağa həddindən artıq səy etdilər. Həzrət Peyğəmbər (s)-in də onların üzərində nəzarəti çox olub. Bunlar da göstərir ki, Qurana bir şey artırılıb, əskilsə idi vaxtında qarşısı alınardı. Bundan əlavə Quranda olan fəsahət və bəlağət göstərir ki, ona bir şey əlavə olunmayıb, çünki Quran ilahi kəlamdır, onun fəsahəti və bəlağəti də ilahi dərəcədədir. Əgər ona bir şey əlavə olunsaydı, bəşər kəlamı olduğu üçün

seçilərdi. Əgər ondan bir şey əksilsəydi onda da ilahi kəlamın fəsahət və bəlağətdən düşməsi nəzərə çarpardı.

## *12-ci Dərsin Sualları*

1) ***Quran ləfzi təhrifə məruz qalıbmı? Cavabınızı nəqli (ayə, hədis və ya rəvayət) və əqli dəlillərlə əsaslamdırın.?***
2) ***Quranın mənəvi təhrifə məruz qalmasını nə cür başa düşürsünüz? Nüminə olaraq, mənəvi təhrifin mümkün olmasına dəlalət edən bir ayə gətirin.***

## 13-cü DƏRS

*I. Quranda nasex və mənsux*
*II. Nəsxin luğəvi mənası*
*III. Nəsxin ictimai mənası*
*IV. Möhkəm və mütəşabeh*

# Quranda nasex və mənsux

Uzun zamanlar üzərində bəhs olunan məsələlərdən biri də "nəsx" bəhsidir. "Üsul" və "Ulumi Quran" alimləri bu barədə çoxlu bəhslər edib, yazılar yazıblar. Asimani kitablarda olan "nəsx" bəhsi başqalarından çox fərqlidir. Bəşər qanununun sonradan dəyişməsi insan elminin naqisliyinə, gələcəyi dəqiq bilməməyinə və zaman keçdikcə qanunların ictimaiyyəti təmin etmədiyinə görədir. Tarix göstərir ki, insan ictimai qanunları təsis edəndə həmişə o qanunları dəyişməklə üzləşibdir.

İndi görək ilahi qanun nədir? Vəhy mənbəyindən başlanan qanunda da dəyişiklik olurmu?

Bu sualın cavabı müsbətdir. Yəni dəyişiklik olur. Amma bir nöqtəyə diqqət etmək lazımdır ki, ilahi qanunların dəyişməsinin fəlsəfəsi bəşəri qanunların dəyişmə fəlsəfəsi ilə fərqlidir. Bəşərin elmi naqis olduğu üçün gücü çatan qanunu zaman və

məkana uyğun yazır. Amma ilahi qanunu yazan Allahın, bütün zamanlara, məkanlara, gələcəyin və keçmişin insanlarının istedad və qüdrətinə bələd olduğu üçün kamil bir qanunu hər zamana uyğun yazır. Dəyişməsi isə insanların qüdrətinə uyğun olaraq mərhələlərlə və tədriclə kamilləşir. Bir qədər aydın desək, Allah-Təala ən kamil qanunu birinci bəşərin zamanında göndərə bilərdi. Lakin bəşər şüurunun kamilləşməsi və bu kamil olan qanuna əməl etməsi üçün zamanlar keçməli idi. Ona görə də Allah-Təala zaman keçdikcə ilahi qanunları insanların istedaına uyğun olaraq əvəz edərək kamilləşdirib. Həqiqətdə bu qanunlar insanları kamilləşdirərək bu günə gətirib çıxardıb və sonuncu peyğəmbərə ən kamil qanun göndərilib.

Din böyüklərinin sözlərinə diqqət edəndə "nəsx"i tanımağın əhəmiyyəti aydınlaşır. İslamın qanunu olan Quranın "nasex" və "mənsux"u ilə tanışlıq çox təkid olunmuşdur.

Əbdurrəhman Sülləmi Əli ibni Əbutalib (ə)-dan nəql edir: Həzrət İmam Əli (ə) bir qazi ilə rastlaşanda ondan soruşur:

هل تعرف الناسخ من المنسوخ ؟ قال لا فقال هلكت و اهلكت

"Quranın nasex və mənsuxuna bələdsən? Dedi: xeyir.

Həzrət buyurdu: özünü də, başqalarını da məhv etmişsən".

Məsciddə insanları moizə edən bir nəfərin nasex və mənsuxu bilmədiyinə görə Mövla İmam Əli (ə) onu məsciddən cixartdı.

Bu və bundan əlavə çoxlu hədislər, nasex və mənsux barədə saysız yazılan kitablar bu bəhsin çox mühim olduğuna dəlalət edir.

## Nəsxin luğəti mənası

Lüğətdə "nəsxin" müxtəlif mənaları vardır: zail olmaq (aradan getmək), təğyir (dəyişmiş), ibtal (batil olmaq) və bir şeyi başqasının yerinə qoymaq.

## Nəsxin ictimai mənası

"Nəsx" üsul alimləri və quranşünasların nəzərində, üst-üstə götürəndə bu mənalara gəlir: "Şəri hökmü şəri dəlil ilə götürmək".

Ayətullah Uzma Xoinin (rahmətullahi ələyh) nəzərində "nəsx" şəriətdə olan bir hökmün zaman və müddəti qurtardığına görə onu ləğv etməkdən ibarətdir.

Əllamə Təbətəbai (rahmətullahi ələyh) "nəsx"i belə tərif edir: "nəsx" bir hökmün vaxtının

qurtarmasını aşkar etməkdən ibarətdir.

Bundan da əlavə çoxlu tərifl ər vardır ki, hamısının məqsədi yuxarıda qeyd etdiyimiz mənaları verir.

"Nəsx"in bir neçə şərtləri vardır. Bu şərtləri bu yazıda gətirib izah etmək fikrində deyilik. Çünki, bu, nisbətən ümumi oxuculara çətin olacaq. Bu bəhs "Maarifi-Quran" barəsində və "Nasex və Mənsux" zəminində yazılmış kitablarda geniş surətdə izah olunmuşdur. Hörmətli oxucu istəsə onlara müraciət edə bilər. Biz isə bu bəhsi qısa surətdə qeyd etməklə istədik ki, az da olsa bu barədə məlumat verək. Ümumi şəkildə "nəsx" barəsində, təkrar da olsa, belə bir məlumat verə bilərik: şəriətdə bəzi hökmlər bir müddət qüvvədə olandan sonra Allah-Təala onu qüvvədən salır və onu başqa birisi ilə əvəz edir.

Bu haqda bir ayədə "Biz hər hansı ayəni nəsx etdiksə, ondan yaxşısını, ya onun mislini nazil etdik" deyə izahat verir. Bu, əvvəldə dediyimiz kimi, islam dininin müqəddəs kitabında da baş vermişdir. Allah-Təala bir vaxt nazil etdiyi hökmü başqası ilə əvəz etmişdir. Bu iş isə, şübhəsizdir ki, insanlara xatir belə edilmişdir. Yoxsa o hökmün əvvəlcədən göndərilməsi Allah-Təala üçün məqdur (Allah ona qadir olub – red.) bir hökm olubdur. Bizim yetişməyimiz və ona hazır olmağımız lazım olub. Birinci hökm bizi ikinci

SonUmidTv

hökmə hazırlayıb. Lazım olan vaxtda isə ikinci hökm nazil olubdur.

Nəsx olunumuş ayələrə misal göstərmək üçün Quranda ayələr vardır. Onlardan da xəbərdar olmaq üçün yuxarıda dediyimiz ünvanlara müraciət edin. Amma buna bir misal olaraq "nəcva" ayəsini göstəririk:

يا ايهاالذين امنوا اذا ناجيتم الرسول فقدموا بين نجواكم صدقة

"Ey iman gətirənlər, peyğəmbərlə (s) gizli söhbət (pıçıltı) etməzdən əvvəl sədəqə verin".

Məsələ belə idi: Müsəlmanlar yerli-yersiz gəlib peyğəmbərlə (s), işləri oldu ya olmadı, hətta bəziləri özlərini peyğəmbərə (s) yaxın göstərmək üçün onunla pıçıldamağa başlayırdılar. Bu da Həzrət Peyğəmbərə (s) əziyyət olurdu. Ona görə bu ayə nazil olub müsəlmanlara Həzrət Peyğəmbərlə (s) gizli söhbət etməzdən əvvəl sədəqə verməyi vacib etdi. Əlbətdə bundan başqa səbəbləri də ola bilər. Onlardan biri də müsəlmanları öz mallarını sədəqə verməkdə imtahan etmək idi. Hər halda bu ayə nazil olub, bu işdə sədəqə verməyi əmr etdi. Amma bu ayəyə ancaq yeganə adam olaraq Əli (ə) əməl edərək on dəfə bu formada Həzrət Peyğəmbər (s) ilə ünsiyyətdə oldu. Hamısında da Allahın buyurduğu kimi sədəqə verdi.

SonUmidTv

Sonra “Mücadilə” surəsinin 13 – cü ayəsi nazil olaraq möminlərə xitab edib sədəqə verməkdən qorxdunuz deyərək əvvəlki ayənin hökmünü ləğv etdi.

Bundan əlavə də nəsx olunmuş ayələr vardır. Xülasəyə görə onları qeyd etmirik.

## Möhkəm və mütəşabeh

Quran xüsusi bir kitabdir. Xüsusi bir imtiyazlara malikdir ki, onu başqa kitablardan ayırır. Bu kitabdan bəhrələnmək, onun uca olan maarifindən istifadə etmək, ondan düzğün istifadə edib, onda olanları düzğün başa düşməyə bağlıdır. Quranda bəzi işlər vardır ki, onları başa düşməmək ona əl çatmazlığa bərabərdir. Bu işlərdən də biri “möhkəm və mütəşabeh’’dir.

Bu məsələnin o qədər əhəmiyyəti vardır ki, bütün Quran müfəssirləri onun hər səhifəsində bu məsələyə artıq diqqət ediblər. Ona görə ki, bu məsələyə diqqət etməmək Quranın təfsirində inhirafa düşməyə səbəb olur. Əgər bir nəfər Quranda inhirafa düşsə dünya və axirətdə bədbəxt olacaq. Fasid məzhəblərin meydana gəlməsi “mütəşabeh’’ ayələrin mənasını düzgün başa düşməməyin nəticəsində olubdur. Bu iş islamın ilkin vaxtlarindan bu günə qədər davam edibdir. Dəstələr Quranın nurani

ayələrini öz rəylərinə uygun təfsir edərək insanlari zəlalətə salıblar. Quranın ayələrinin iki hissəyə bölünməsi heç hikmətsiz deyil. Birinci ''möhkəm'' ayələr "Quranın anası" ünvanı ilə qələmə verilmişdir. İkinci dəstə "mütəşabeh'' ayələrdir ki, onların özündə də böyük hikmət vardır. Onlardan biri də imtahan ola bilər. Allah-Təala bu yol ilə insanların ilahi ayələr qarşısında özlərini necə göstərməyini imtahan edir. Bu insan həqiqətən iman gətirib, yoxsa şəxsi mənafeləri ilə ilahi mənafeləri üz-üzə dayananda şəxsi mənafeini ilahi hökmlərə üstünlük verərək, ilahi qanunların əleyhinə çıxmaq cəsarəti edib, müvəqqəti dünyaya görə özünü əbədi zəlalətə salacaq?

Biz təqribən də olsa Quranın ayələrinin iki hissəyə ("möhkəm və mütəşabeh'') bölündüyünü bildik. Bunu da bildik ki, birinci qism ayələr (möhkəm) Quranin anası (ümm) hesab olunur. Bu ayələr Quranda mərcə və əsas ünvanındadır.

İkinci dəstə ayələrin (mütəşabeh) başa düşülməsi birinci ayələrə bağlıdır. Bəziləri də Quranın təbiri ilə desək ''fitnə'' törətməyə xatir birinci dəstə ayələri nəzərə almadan ikinci dəstə ayələri öz rəylərinə uyğun təfsir edirlər. Bu da Allahın hökm etdiyi kimi qərar verməməkdir. Əvvəldə işarə etdiyimiz kimi, hər kəs Allah nazil etdiyi kimi hökm etməsə, həm kafir, həm fasiq, həm də münafiqdir.

SonUmidTv

Söhbətimizin bu hissəsində öz rəyinə uyğun təfsir etməyin günahı barədə bir neçə məqama işarə etməzdən əvvəl "təfsir'' barəsində bir qədər izahat verək sonra isə bu məqamlara nəzər salaq.

## *13-cü Dərsin Sualları*

1) ***"Nəsx" in lüğəvi və ictimai mənasını izah edin.***
2) ***Quranda olan "nasex" və "mənsux"un insanların fikir dəyişdirməsi ilə fərqi nədir?***
3) ***Möhkəm və mütəşabeh ayələrin hərəsinə bir misal gətirin və fərqlərini izah edin.***

## 14-cü DƏRS

*I. Təfsir*
*II. Təfsir nə vaxtdan başlayıb?*
*III. Öz nəzərinə uyğun təfsir etmək və onun təhlükəsi*

# Təfsir

Təfsir lüğətdə bir şeyin üzündən örtüyü götürməyə deyərlər. Belə bir sual oluna bilər: Quran nur və aşkar olan kəlamdır, onun üzündə örtük varmı? Cavabında deyərik ki, Quranın üzərində örtük yoxdur, örtük bizim üzümüzdədir. Gərək bizdən örtük götürülsün ki, Quranla tanış ola bilək və onun dərinliklərinə baş vuraq.

Bundan əlavə Quranın təkcə bir çöhrəsi yoxdur: bir ümumi çöhrəsi vardır ki, hamı üçün açıqdır, aşkar nurdur və insanların hidayət mənbəyidir. Amma onun başqa çöhrələri vardır ki, onu böyük alimlər, həqqə susuz olub onu Allah kölgəsində axtaranlar, öz elmlərini həmişə ilahi elmlərə malik olanlardan alanlar və ən kamilləri isə elmləri ilahi elmə bağlı olanlıar aşkar edə bilirlər.

Bu çöhrələr ki, hədis dilində Quranın daxili (bütuni Quran) adlanır, hamıya aşkar ola bilməz.

Başqa ibarətlə desək bütün gözlərin onları görmək qüdrəti yoxdur. Təfsir edənin gərək Qurana yanaşmaga lazımi qədər elmi olsun, Quranla bizim aramızda olan pərdələri götürsün, ondan bəhrələnmək şəraitini bizim üçün yaratsın.

Quranın başqa çöhrələri var ki, onlar da zaman keçdikcə acılır. İbni Abbasdan olan bir hədisdə belə deyilir: "Quranı zaman təfsir edəcək''

القران يفسره الزمان

Bundan əlavə "Quran özü-özünü təfsir edir ''

القران يفسر بعضه بعضا

ayələrin biri o birini açıqlayır, izah edir.

## Təfsir nə vaxtdan başlayıb?

Şübhəsiz Quranın təfsiri Həzrət Peyğəmbərin (s) öz zamanından başlanıbdır. Amma onun yazılı şəkildə meydana çıxması hamının dediyinə görə Əli (ə)-ın zamanından başlanıb və bu elmdə yüksələnlər özlərini "elm şəhərinin qapısı'' olan bu şəxsə çatdıranlar olublar. Əfsuslar olsun ki, bu günlərdə elmin qapısını tanımayanlar, bu qapını inkar edənlər və bu qapının haqq qapısı olmağını bilib, lakin inad üzündən ondan uzaq gəzənlər Qurana təfsir verməkdədirlər. Şübhə yoxdur ki, bunlar səhv və xətaya düçar olurlar. Öz üzərlərinə oğru adı qoyurlar.

SonUmidTv

Çünki, evin qapısı qalaraq başqa yerdən ona daxil olub, onun insanlara lazım olan sirrlərini aşkar etmək fikrində deyillər. Onlar həmişə öz pis olan nəfislərinin qulları olaraq oğurluğa getdikləri evin özlərinə, heyvani hisslərinə uyğun əşyalarını götürürlər. Götürdüklərini heç vaxt insanların mənafeyi uğrunda sərf etmirlər. Öz oğru peşələrini möhkəmlədərək, birinci oğurluqdan kəsb etdiklərini ikinci cinayətlərinə yetişmək üçün xərcləyirlər.

Quran müfəssirləri vaxtlarını, istedadlarını, ömürlərini sərf edərək insanları bu ilahi olan nura çəkib, onları zülmətdən qurtarmaq istəyiblər. Öz şəxsi mənafelərini nəzərə almadan bu ilahi kitaba çox ehtiyatla yanaşaraq hidayət etmək istədikləri vaxtı zəlalətə salmaqdan ehtiyat ediblər.

Allaha təvəkkül edərək müvəffəq olublar. Bildiklərini bəyan edərək bilmədiklərini aydıncasına etiraf edib, onu Allahın öhdəsinə qoyaraq o gizli sirrləri aşkar etməkdə Ondan kömək istəyiblər.

Amma oğrular bir evə daxil olanda hec vaxt orada ehtiyat etməyiblər,özlərinə lazım olanı tapıb çıxartmaqdan ötrü hər nə gəldi söküblər, uçurublar, xaraba qoyublar, təki mənfur olan niyyətlərinə çatsınlar. Siz bir anlığa bir caninin evə girib cinayət etməyini təsəvvür edin. Orada hansı dəhşətlər baş verdiyinə varın. Sonra bütün bəşəriyyətin hidayət

SonUmidTv

vasitəsi olan Qurana oğurluq niyyəti ilə daxil olanların cinayətini təsəvvür edin; bu halda evlər yox, kəndlər və şəhərlər deyil, əsrlər boyu millətlər dünya və axirətdə bədbəxt olaraq məhvə dücar olub aradan gedirlər. Biz tarixə nəzər salsaq görərik ki, çoxlu millətlər; Səmud qövmi, Nuhun qövmi, Lutun qövmi, Saleh peyğəmbərin qövmi hamısı məhv oldular, tarixdən silindilər. Nə ücün? Ona görə ki, ilahi hökmlərə nisbət oğru niyyəti ilə yanaşdılar. Bu hökmləri ilahi məcradan çıxartmaq fikrinə düşdülər. Nəticədə dediyimiz bəlaya dücar oldular.

Mövla İmam Əli (ə) xütbələrinin birində belə buyurur: "Keçmişdə olan zalım ümmətlərin başına gələn əhvalatlardan və onların torpaq altında çəkdiyi əzablardan ibrət götürün". Əfsuslar olsun ki, biz insanlar bunlardan ibrət götürmək əvəzinə onların etdikləri günahları təkrar edirik.

Quranı təfsir etməkdə ən təhlükəli yol öz nəzərinə uyğun qərar çıxartmaqdır, Qurandan istifadə etmək əvəzinə öz fikirlərini Qurana tətbiq etməkdir. Bunun nəticəsində insanlar böyük zəlalətə düşürlər. Çünki ilahi kitab bütün bəşəriyyəti hidayət etmək üçündür. Bu kitabı insanlara olduğu kimi çatdırmamaq bu insanları əbədi zəlalətə salmaq deməkdir.

## Öz nəzərinə uyğun təfsir etmək

## və onun təhlükəsi

Əvvəldə qeyd etdik ki, ''Təfsir'' aşkar olmayan bir şeyi aşkar etmək, cümlə və sözün üzərindən pərdəni götürməyə deyirlər. Bunu da qeyd etdik ki, Qurani-Kərim çox dərin mənaya malik olan bir kitabdır. Ona görə də onu təfsir edəndə çox ehtiyatlı olmaq lazımdır. Hər kəs öz nəzərinə uyğun təfsir etməməlidir.

Öz nəzərinə görə təfsir etmək bir neçə səbəbdən irəli gəlir:

1. Cahillik. Yəni, Quran elmindən xəbəri olmadan, sadəcə ərəb dilini bildiyinə görə bəziləri Qurana təfsir verməyə başlayırlar. Nəticədə öz şəxsi təxəyyüllərinə gələni yazırlar. Cox geniş olan islam nəzəriyyəsini, hüdudsuz olan Quran mənalarını öz məhdud və səviyyəsiz fikirləri ilə əvəz edirlər.
2. Bəziləri isə Quran elmindən xəbərdardırlar. Amma Qurani-Kərimin oldugu kimi təfsir olunması bu şəxslərin ümumi və ya fərdi mənafelərinə ziddir. Allahı yaddan cıxardaraq, ilahi hökmləri ümumi bəşərin mənfəətinə işlətmək əvəzinə özlərinin şəxsi olan çirkin niyyətinə uyğun istifadə edirlər. Çox təəssüf olsun ki, bu qəbil insanlar, həm birinci növ, həm də ikinci növ insanlardan hər zamanda yaşarayaq bizim zəmanəmizə də gəlib cıxıblar.

Burada şəxsi nəzərə uyğun təfsir verənlərə Allahın və məsumların münasibətini bildirmək istərdim:
Həzrət İmam Əli (ə) kəlamlarının birində Allah-təalanın belə buyurduğuna işarə edir:

قال الله ﷻ ما امن بی من فسر برأ یه کلامی وما عرفنی من شبحنی بخلقی و ما علی دینی من استعمل القیاس فی دینی

“Hər kəs mənim kəlamımı öz rəyinə uyğun təfsir etsə mənə iman gətirməyib, kim məni məxluquma oxşatsa məni tanımayıb, kim mənim dinimdə qiyası işlətsə mənim dinimdə deyil’’.

Başqa bir yerdə Həzrət İmam Sadiq (ə) buyurur:

من حکم برأیه بین اثنین فقد کفر و من فسر برأیه ایة من کتاب الله فقد کفر

“Kim iki nəfərin arasında öz rəyinə uyğun hökm etsə kafirdir, kim Quranın bir ayəsini öz rəyinə uyğun təfsir etsə kafirdir’’.

Quran ayələrinin barəsində Həzrət İmam Sadiq (ə)-dan başqa bir hədisə diqqət edin:

لیس شیء ابعد من عقول الرجال منه (القران) ان الایة لتنزل اولها فی شیء واوسطها فی شیء و اخرها فی شیء وهو کلام متصل ینصرف علی وجوه

“Quran insanların fikrindən çox uzaqdır, çünki,

ayənin əvvəli bir şeyin barəsində, ortası başqa, axırı isə başqa bir şeyin barəsində nazil olubdur. O, bir kəlamdır bir-birinə bağlıdır, cürbəcür yollara qayıdır''.

Həzrətin (ə) "fikirlərdən uzaq" deməsi bu mənayadır ki, hər fikir sahibi onu dərk edə bilməz. Hər zehinə gələni Qurana təfsir hasab etmək olmaz. Bu hədis bir daha sübut etdi ki, Qurani-Kərim çox mürəkkəb bir kitabdır. Onunla ehtiyatla davranmaq lazımdır. Yenə də xüsusi nəzərə uyğun təfsir etmək barədə varid olan hədislərə qayıdaq və görək bu hədislərdə o, cür insanlar necə təmsil olunurlar. Həzrət İmam Sadiq (ə) buyurur:

من فسر القران برأيه فأصاب لم يؤجر وان اخطاء كان اثمه عليه

"Hər kəs Quranı öz rəyinə uyğun təfsir etsə, əgər həqiqətə uygun olsa savabı yoxdur, əgər düzgün olmasa günahkardır''.

Həzrət Peyğəmbər (s) buyurub:

من قال فى القران بغير ما علم جاء يوم القيامة ملجأ بلجام من نار

"Hər kəs bilmədən Quran barəsində danışsa qiyamətə cəhənnəm yüyənləri ilə yüyənlənərək gələcək''. Yenə də o Həzrət (s) buyurmuşdur:

اكثر ما اخاف على امة من بعدى رجل يتأول القران يضعه على غير مواضعه

“Özümdən sonra ümmətim üçün ən çox qorxduğum adam o şəxsdir ki, Quranı təfsir edə, amma hər şeyi öz yerində etməyə (düzgün təfsir etməyə). Həzrət İmam Baqir (ə) Quranı təfsir edən bir nəfərə buyurdu: “Quranı o adam bilər ki, Quran ona xitab olunubdur’’.

Bunlar və bundan əlavə çoxlu mötəbər hədislər vardır ki, Quranı öz rəylərinə əsasən təfsir edəniləri məzəmmət edir və cəhənnəm vədəsi verir.

Bir az əvvəl işarə etdik ki, öz nəzərlərinə uyğun təfsir edənlərinn bir dəstəsi mənafe xatirinə belə edirlər. Bu barədə Quranın Bəqərə surəsinin 75-ci ayəsində məlumat verilir:

افتطمعون ان يؤمنوا لكم وقد كان فريق منهم يسمعون كلام الله ثم يحرفونه من بعد ما عقلوه وهم يعلمون

“Siz gözləyirsiniz onlar sizin dininizə iman gətirsin. Halbuki, onların bir dəstəsi Allahın kəlamını eşidiblər, onu başa düşüb, xəbərdar olandan sonra, o kəlamı təhrif edirdilər’’.

Gördüyünüz bu ayədə söhbət yəhudilərdən gedir. Onlar həqiqəti – Quranı sonuncu kitab və Həzrət Muhəmməd (s)-i sonuncu peyğəmbər olduğunu bilərək inkar edir, öz Tövratlarında bu barədə oxuduqlarını təhrif edirdilər.

“Maidə” surəsinin 13-cü ayəsində Allah-Təala buyurur:

يحرفون الكلم عن مواضعه ونسوا حظا مما ذكروا به

“Onlar sözləri öz yerindən təhrif edirlər və onlara xəbərdarlıq edilənləri unudurlar’’.

“Nisa’’ surəsinin 46-cı ayəsində yenə yəhudilərin Allah kəlamını təhrif etmələrindən söz açaraq buyurur.

من الذين هادوا يحرفون الكلم عن مواضعه

“Yəhudilərdən Allah kəlamını təhrif edirlər’’. Qurani-Kərimdə yəhudilərin təhrifi barəsində olan ayələrin cəmindən bu nəticəyə gəlinir ki, bir dəstə yəhudinin mənafeyinə görə haqq təhrif olunur, gizlədilir və başqa formada insanlara çatdırılırdı. Allah kəlamı döndərilərək insanlar zəlalətə salınırdı. İlahi kəlamlar təhrif olunur, bir dəstə insanlar isə ondan dünya faydası götürürlər. Bu yolda onlara bir dəstə də cahil surətdə yardımçı olur, birinci dəstə dünya qazanıb axirət itirirlıər, ikinci dəstə isə həm axirət, həm də dünyanı itirirlər. Bu barədə mötəbər olan bir hədis var: “İnsanların pisi axirətini dünyasına satanlardır, onlardan daha pisi, axirətini başqasının dünyası üçün satanlardır’’. Baxın bu bədbəxtlərə, görün necə çirkin əmələ mübtəla olublar. Bəlkə bu günkü təhriflərdə də

SonUmidTv

yəhudi barmağı vardır. Bu günkü təhrifçilər görəsən kimin dünyasına xidmət edərək öz axirətlərini satırlar? Əbədi lənətə düçar olmuş bir dəstə yəhudinin davamçıları onların başına gələn müsibətləri görərkən nə üçün bu çirkinlikdən çəkinmirlər? Görəsən bu gün Quranda hicab ayəsinin mənasını təhrif edənlər, şərabın haram olması barədə Quranda ayənin olmadığını iddia edənlər kimin dəyirmanına su tökürlər? Öz axirət taxtlarını vıran edərək başqaları üçün dünya taxtı qururlar. Yeri gəlmişkən deyim ki, Quranda hicabı vacib edən ayələr vardır. Oxucular bu barədə Quranın "Əhzab'' surəsinin 53 və 59-cu, "Nur'' surəsinin isə 30, 31 və 57-ci ayələrinə müraciət edə bilərlər. Bu ayələr qadinların kamil surətdə örtülməyindən söz açaraq, hicabı vacib olan ilahi hökm olaraq aydın surətdə başa salır. Əvvəldə dediyimiz kimi bəziləri gah bu barədə ayələrin olmadığını, gah da hicabın bütün bədənə aid olmadığını iddia edirlər. Onlar yalançı, axirətlərini dünyaya satanlar, başqalarının və şeytanların muzdurlarıdırlar.

Şərabın haramlığı barədə də Qurani-Kərimin "Bəqərə" surəsinin 219-cu, "Maidə" surəsinin 90, 91-ci ayələrinə müraciət edilə bilər. Əlbəttə Quranın ayələrinin çoxuna bu gün düzgün yanaşmırlar, amma bu iki mövzu çox aktual olduğundan onlara xüsusi işarə etdik.

SonUmidTv

3. Qurani-Kərimin (mənəvi) təhrif olma səbəblərindən biri də "Əhli-Beyt'' əleyhimussalamdan uzaq düşməkdir. Belə ki, islamın hələ əvvəl vaxtlarında elm şəhərinin qapısı, elmdə möhkəm (ərrasixunə fil elm) olan pak insanlar, Allah dinində həm əql, həm elm və həm də sünnət cəhətdən kamil müsəlman və Allahın tam xəlifələri olan Peyğəmbər (s)-in Əhli-Beyti kənara qoyuldular. İslam və onun müqəddəs olan kitabı nəməhrəmlər əlinə düşdü. Nəticədə bu cür təhrifçilər ortaya çıxdı. Onların davamçıları isə bu gün Quranı öz nəfslərinə uyğun təfsir etməkdədirlər. Həzrət İmam Əli (ə) buyurur :

سلونی قبل ان تفقدونی

"Məni itirməmiş məndən hər şeyi xəbər alın''.

Başqa bir yerdə o Həzrət buyurur:

فبادروا العلم من قبل تصويح نبته و من قبل ان تشغلوا بانفسكم عن مستشار العلم من عند اهله

"Elm budaqları salmamış, özünüz giriftarcılığa dücar olmamış, elm meydanının çiçəklərindən və fikir inqilabının bəhrələrindən istifadə edin''.

Amma əfsus ki, bu çiçəkləri soldurdular, inqilab meydanlarını qarışdıraraq elm şəhərinin qapılarını məzlum xalqların üzünə bağlayaraq onları elm dəryasından istifadə etməkdən məhrum etdilər. Nəticə? Nəticə isə göz qabağındadır. Bu günlər

insanlığa ləyaqəti olmayanlar, insanlıq kitabı olan Qurani-Kərimin müəllimləri olublar. Halbuki, Həzrət Peyğəmbər (s) bunlar kimilərin barəsində 1400 il bundan qabaq buyurmuşdur:

رب تال القران والقران يلعنه

"Çox Quran oxuyanlar vardır ki, Quran onlara lənət oxuyur''. Bəli bu həqiqətdir, Quran onlara lənət oxuyur və oxuyacaq. Nə vaxta qədər bunlar öz çirkin əməllərindən əl çəkməyiblər Quran, Allah, mələklər və bütün lənət oxuyanlar onlara lənət oxuyacaq.

Amma fikirləşməyək ki, bunların çirkinliyi əbədidir. Xeyr! İnşaallah, Allahın sonuncu Höccəti (ə.f.) zalimlərin kökünü kəsən, münafiqləri məhv edən, məzlumların köməyi, Quranın şəriki, elm şəhərinin bugünkü qapısı, bütün məzlum və məzlum ölənlərin vəlisi və sultanı tezliklə zühur edər və bu ədalətsizliyə son qoyar. İnşaallah. İlahi, bizə də onun kərimə olan hökumətinin ləzzətini dadızdır. Amin.

## *14-cü Dərsin Sualları*

1) ***"Təfsir" kəlməsini nə cür başa düşürsüz və Quranın təfsiri nə zamandan başlayıb?***
2) ***Nə üçün Quranı öz nəzərimimizə uyğun təfsir etmək qadağandır və Quranı öz nəzərimimizə uyğun təfsir etməyin təhlükəsi nədir?***
3) ***Quranın bəzi insanlar tərəfindən öz nəzərlərinə görə təfsir olunmasının səbəbləri hansılardır?***

## 15-ci DƏRS

*I. Quran barədə bəzi əlavə məlumatlar*
*II. Quran oxumağın ədəbləri və diqqətə alınmalı bəzi məsələlər*
*III. Quran kimə lənət oxuyur?*
*IV. Quranın əzəmət, ədalət, qorxutmaq və ümid vermək cəhətdən ən böyük ayələri*

## Quran barədə bəzi əlavə məlumatlar

Sonda Quranın barəsində, oxumağının və ondan istifadə etməyin savabı və necə istifadə etmək, ümumiyyətlə bəzi məqamlara toxunmaq istərdim.

1. Quranın özü barədə Həzrət İmam Əli (ə) buyurub: "Allah-Təala Quranı susuz alimlər üçün nuş, fəqihlərin qəlbi üçün bahar, salehlərin getməyi üçün aşkar yol qərar vermişdir, Quran bir dərmandır ondan istifadə edən xəstələnməz, Quran bir işıqdır zülmət ona yaxınlaşa bilməz''.
2. Quran inam və rəhmətdir.

   Həzrət Peyğəmbər (s) buyurur :

   عليكم بالقران فأتخذوه اماما وقائدا

   "Quranı sizə tapşırıram ki, onu özünüzə aman və rəhbər qərar verin''.
3. Quran əhsənulhədisdir.

’’ Zumər ’’ surəsi 23-cü ayədə buyurur:

الله نزل احسن الحديث كتابا متشابها مثاني تقشعر جلود الذين يخشون ربهم ثم تلين جلودهم وقلوبهم الى ذكر الله

’’Allah-Təala ən gözəl hədisi (sözü) nazil edib, o bir kitabdır ayələri gözəllik və dərin mənasına görə bir-birinə oxşayır, ayələri təkrar olunur, Allahdan qorxanlar onu eşidəndə bədənlərinə lərzə düşür, sonra onların daxili və batini nərm olaraq Allahı yad edirlər...’’

Həzrət İmam Əli (ə) buyurub:

ان احسن القصص و ابلغ الموعظة و انفع التذكرات كتاب الله عز و جل

“Həqiqətən ən gozəl qissələr, yetirinci olan moizələr, mənfəətli xəbərdarlıqlar Allahın kitabındadır’’. Həzrət Peyğmbər (s) Quranın fəziləti barəsində belə buyurmuşdur:

فضل القران على سائر الكلام كفضل الله على خلقه

“Quranın başqa kəlamlara nisbət fəziləti, Allah Taalanın məxluqa nisbət fəziləti kimidir’’.

4. Quran bütün zamanlarda təzədir.

İmam Sadiq (ə) buyurur: “Allah-Təala Quranı bir zaman üçün qərar verməyibdir, bir qövm üçün göndərməyibdir, o, bütün zamanda yenidir, bütün

insanlar üçün hökmdür''.

5. Quran böyük xəstəliklərə şəfadır.
   "İsra'' surəsi 82 :

وننزل من القران ما هو شفاء ورحمة للمؤمنين ولا يزيد الظالمين الا خسارا

"Quranda möminlər üçün şəfa və rəhmət göndərmişik, lakin zalimlər ziyandan başqa bir şey artıra bilməzlər''.

Mövla İmam Əli (ə) buyurur:

ان فيه شفاء من اكبر الداء و هو الكفر والنفاق والغي والضلال

"Quran, küfr, nifaq, zülm və zəlalət kimi böyük xəstəliklərə dərmandır''. Yenə də bu barədə Mövla İmam Əli (ə) buyurub: "Allahın kitabını sizə tapşırıram, o möhkəm ipdir, aşkar nurdur, mənfəətli şəfa verəndir, kim onun vasitəsi ilə danışsa doğrucul olar, kim ona əməl etsə qabağa gedər''.

6. Quran böyük dövlətdir, onda böyük elimlər və xəbərlər vardır.

   Həzrət Peygəmbər (s): "Quran böyük dövlətdir, ondan üstünü yoxdur, ondan uzaq olmaq ən dəhşətli fəqirlikdir, onda keçmişlərin xəbərləri, gələcəyin xəbəri, yerin və göyün elmi var. Hər hansı bir işdə iki nəfər ixtilaf etsə onun cavabı

SonUmidTv

Quranda var, lakin onu adi insanlar dərk edə bilmirlər''.

7. Quranı öyrənməyin savabı.

   Həzrət Peygəmbər (s) buyurub: "Sizin xeyirlilәriniz Quranı öyrənib və öyrədənlərdir, Quranı öyrənin və çox oxuyun. Qiyamət günü Quran oxuyana deyilər: behiştə daxil ol, oxu və uca ol, hər oxuduğun ayəyə görə dərəcəni al''. O Həzrət baçqa yerdə buyurub:

ان اردتم عیش السعداء و موت الشهداء والنجاة یوم الحسرة والظل یوم الحرور ولهدی یوم الضلاة فادرسوا القران فانه کلام الرحمان و حرز من الشیطان و رجحان فی المیزان

   "Əgər xöşbətlərin həyatını, şəhidlərin ölümünü, qiyamətin (həsrət günü) nicatını, isti günün kölgəsini və zəlalət gününün hidayətini istəyirsinizsə Quranı öyrənin, həqiqətən Quran Allahın kəlamıdır, şeytandan müdafiədir, tərəzinin ağırlığıdır''.

8. Quran öyrətmənin savabı.

   Həzrət Peygəmbər (s): "Kim Quranı öyrənə və başqasına öyrədə və ona əməl edə, mən özüm onu behiştə apararam''.

   Mövla İmam Əli (ə): "Atanın boynunda haqdır övladına yaxşı ad qoya, onu tərbiyələndirə və ona

SonUmidTv

Quranı öyrədə''.

Həzrət Peygəmbər (s):

من علم ولدا له القران قلده الله قلادة يعجب منها الاولون والاخرون يوم القيامة

"Hər kim övladına Quran öyrətsə Allah onun boynuna bir boyunbağı asar, Qiyamət günü bütün insanlar ona təəccüb edərlər''.

Quranı öyrənib yadda saxlamağın da böyük fəzilətləri vardır. Bu barədə islam mənbələrində məsumlardan çoxlu hədislər vardır: "Kim Quranı əzbərləsə fikirləşməsin ondan böyük bir nemətə çatan var''.

"Kimin daxilində Qurandan bir şey yoxdur, O xaraba qalmış evə bənzəyir''.

Bundan əlavə çoxlu rəvayətlər vardır ki, Quranı yad etmək, onu təkrarlamaq və yaddan çıxartmamagı təkid edir. Hər kəs Quranı unutmuş olsa ən böyük neməti itirmiş olar.

Quran qəlblərin cilasıdır. İnsan nə qədər onu cox oxusa, o qədər qəlbi təmizlənər. Kim Quranla üns tutsa dostların ayrılığı onu qorxutmaz. Quranı gözəl səs ilə oxumaq yaxşıdır, necə ki, Həzrət Peyğmbər (s) buyurur: "Yaxşı səs Quranın zinətidir, hər şeyin bəzəyi var, Quranın da bəzəyi yaxşı səsdir''. O Həzrət buyurur: "Quran oxuyanda

Allahdan qorxan adam yaxşı Quran oxuyandır''.
Quran oxuyan gərək oxuduqlarına əməl etsin. Mövla İmam Əli (ə) buyurur: "Quran oxuyanlardan kim cəhənnəmə getsə bilin ki, o, Quranın ayələrini məsxərə edibdir (yüngül sayıbdır, əhəmiyyət verməyibdir). Onu da bilmək lazımdır ki, oxuyub əməl etməmək ən böyük məsxərədir''.

## Quran oxumağın ədəbləri və diqqətə alınmalı bəzi məsələlər

Hər bir işi əmələ gətirməyin bir yolu və səliqəsi vardır. O, işi səliqə və yolu ilə əmələ gətirəndə daha yaxşı, keyfiyyətli və təsirli olur. Quranı oxumağin da bir neçə şərti vardır:

a) Agizi təmizləmək:
Həzrət Peyğəmbər (s) buyurdu : "Quranın yollarını təmizləyin. Dedilər: Ya Rasulaallah! Quranın yolu nədir? Onu nə ilə təmizləyək? Həzrət (s) buyurdu: Quranın yolu ağızlardır, onu misvakla təmizləyin (dişlərinizi yuyun). Həzrət (s) buyurub:

طيبوا افواهكم فان افواهكم طريق القران

"Ağızlarınızı təmizləyin, onlar Quranın yollarıdırlar''.

b) İstiazə.

"Nəhl'' surəsi ayə 98-də buyurulur:

فاذا قراءت القران فستعذ بالله من الشيطان الرجيم

"Quran oxuyan zaman pis olan şeytandan Allaha pənah apar'' (əuzu billahi minəşşəytanir racim).

c) Tərtil.

Quranı tərtil ilə oxumaq, sözlərini qarışdırmamaq. Vəqf və vəslini düzgün yerinə yetirmək, hərəkələrini düzgün oxumaq.

d) Quran oxuyanda oxuduğunu tədəbbür (fikirləşib dərk etmək) etmək.

"Sad'' surəsinin 29-cu ayəsində belə buyurulur:

كتاب انزلناه اليك مبارك ليدبروا اياته وليتذكر اولو الباب

"Bu mübarək kitabı sənə nazil etmişik ki, onun ayələri barədə fikirləşsinlər və ağıl sahibləri xəbərdar olsunlar''.

Mövla İmam Əli (ə) buyurub:

فدبروا ايات القران و اعتبروا به فانه ابلغ العبر

"Quranın ayələrində fikirləşin və ondan ibrət götürün çünki, o, ən yaxşı ibrət götürməli kitabdır''. Mövla İmam Əli (ə) buyurub: '' Fikirləşmədən (tədəbbürsüz) Quran oxumağın, məsələsini (təfəqqüh) bilmədən ibadət etməyin xeyri yoxdur''.

e) Qurana qulaq asmaq.

"Əraf'' surəsinin 204-cü ayəsində Quran oxunanda ona qulaq asmaq barəsində buyurulur:

و اذا قرأ القران فستمعوا له و انصتوا لعلكم ترحمون

"Quran oxunan zaman ona qulaq asın və sakit olun, ümid var buna xatir sizə rəhm oluna''.

Həzrət Peyğəmbər (s):

الا من اشتاق الى الله فاليستمع كلام الله

"Kim Allaha muştaqdırsa, onun kəlamına qulaq assın''.

"Quran oxuyandan dünya bəlası götürülər, qulaq asandan isə axirət bəlası''.

Zürarə adli bir şəxs İmam Sadiq (ə)-dan Qurana qulaq asmaq barədə soruşanda Həzrət (ə) buyurdu: "Bəli, gərək sakit qalıb qulaq asasan''.

## Quran kimə lənət oxuyur?

Həzrət Peyğəmbər (s): "Çox Quran oxuyanlar vardır ki, Quran onlara lənət oxuyur''.

"Quran (sadəcə) oxumaq üçün deyil, hidayət olub əməl etmək üçündür''.

Yenə də Həzrət (s) buyurur: "Qəriblər dünyada dörd nəfərdirlər: Quranı zalım oxuya, bir qövmin

məscidi ola orada namaz qılmayalar, bir evdə Quran ola oxumayalar, saleh bir kişi pis camaatla bir yerdə ola''. Həzrət Peyğəmbər (s) buyurub:

اکثر منافق امتی قراؤها

"Mənim ümmətimin münafiqlərinin çoxu Quran oxuyanlardır''.

"Cəhənnəmdə bir yer var, ora qarilərin və günahkar alimlərin başını atacaqlar''.

İmam Baqir (ə) buyurur: "Hər kəs zalımın yanına gedə və onun üçün Quran oxuya, məqsədi dünya ola, oxuyan üçün hər hərfinə on dənə lənət yazılar, qulaq asan üçün isə hər hərfinə bir lənət yazılar''. Həzrət Peyğəmbər (s):

من تعلم القران للدنیا و زینتها حرم الله علیه الجنة

"Hər kim Quranı dünya və onun zinnətinə görə öyrənsə Allah-Təala behişti ona haram edər''.

## Quranın əzəmət, ədalət, qorxutmaq və ümid vermək cəhətdən ən böyük ayələri

Həzrəti peyğəmbər (s):

اعظم اية فى القران اية الكرسى واعدل اية " ان الله يا مر بالعدل والاحسان " واخوف ايه فى القران "ومن يعمل مثقال ذرة شرا يره" و ارجى اية فى القران "قل يا عبادى اللذين اسرفوا على عنفسهم لا تقنطوا من رحمة الله"

"Quranda ən əzəmətli ayə "Ayətül kürsüdür'' ''.

Ədaləti cox yüksək təsvir edən ayə "Həqiqətən Allah ədalətə və ehsana əmr edib''.

Ən qorxuducu ayə "Hər kəs misqalın zərrəsi qədər şərr etsə (qarşılığını) görəcək''.

Ən ümidverici ayə "Ey nəfslərini israf edən bəndələr, Allahın rəhmətindən məyus olmayın''.

### *15-ci Dərsin Sualları*

1) ***"Quran nədir?" sualına hədis və rəvayətlərlə cür cavab verərsiniz?***
2) ***Quranı öyrənməyin və öyrətməyin savabı barədə hədis və rəvayətlərdə nə buyurulub?***
3) ***Quran oxumağın ədəblərini sadalayın.***
4) ***Quranın lənət oxuduğu şəxslər kimlərdir?***
5) ***Quranda ən ümidverici ayə hansıdır?***

Və sonda Allahı and veririk Öz izzəti-cəlalına bizi həqiqi Quran oxuyanlardan qərar versin.

İlahi, bizi məhşərdə Quran və Əhli-Beytlə məşhur elə.

10 sentyabr 2005
5 şəban 1426



Rüstəmov Əhliman Fidatxan oğlu 1967-ci il mar
ayının 8-də Cəlilabad rayonu Qarğılı kəndində
anadan olmuşdur. Elə həmin kəndin orta məktəbində
ibtidai sinfilərinin, sonra Masallı rayon Sığıncaq kənd
orta məktəbində oxumuşdur. Dini təhsilini və
ilahiyyat elimlərini Azərbaycanın görkəmli, iman
ruhani alimi mərhum molla Bəylərdən əxz etmişdir
Ustadının yolunu davam etdirərək yiyələndiyi dini və
ilahiyyat elmlərini tədris etməklə üzərinə düşən elmi
zəkatını əda etmişdir. Uzun müddət Nardaran
qəsəbəsində Sahibəz-Zaman (ə.c.) mədrəsəsində
sərf, nəhf, əhkam, islam tarixi, əqidə əsasları, fiqh
üsul, məntiq və s. İlahiyyat elmlərini tədris etmişdir
Bakı İslam Universitetinin məzunu və müəllim
olmuşdur. Bir neçə kitab müəllifidir
Hal hazırda Hacı Cavad məscidinin imam cüməsidir